www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 iyul 2019-cu il Cümə № 151 (7321) Qiyməti 60 qəpik

**Xəbər**

## Sərhəddə düşmən təxribatı: sərhədçimiz yaralandı

yazısı səh.11-də

**Gündəm**

### İrəvan işğal rejiminə Qərbdə dəstək axtarır - təhlükəli oyun



Putinin Ermənistana gözlənilən kritik səfəri ərəfəsində maraqlı gəlişmə

yazısı səh.11-də

# BÖLGƏDƏ BAKININ MÖVQEYİ GÜCLƏNİR- ABŞ-IN ŞOK PLANI

Vaşinqton Azərbaycana yardımı artırıb, Ermənistana isə azaldıb - ilginc statistika; erməni rəsmilərinin Amerikaya silsilə səfərlərinin motivi - Paşinyan Vaşinqtona "siyasi desantlar"ı niyə göndərib? **Politoloq:** "Azərbaycan Qərbin regionda əsas dayağına çevrilir..."




yazısı səh.8-də

### Xəzəri hasarlayanlara qarşı mübarizə sərtləşir

yazısı səh.7-də

### Keşikçidağı ilə bağlı Tiflis və Bakıdan maraqlı təkliflər

yazısı səh.4-də

### Dünyanın ən dəyərli və ən ucuz 10 valyutası - siyahı

yazısı səh.12-də

### Beynəlxalq maliyyə qurumlarından manata etimad - istiqrazlar nə vəd edir?

yazısı səh.4-də

### Mühacir mafiyası insanları necə tora salır - şok detallar

yazısı səh.3-də

### Göyçə gölü quruyur

yazısı səh.7-də

### Ermənistan region üçün yeni "bomba" hazırlayır-AES tikintisi

yazısı səh.9-da

### ABŞ-ın "İran təranələri" siyasəti-gah müharibə, gah danışıq...

yazısı səh.12-də

### İcbari tibbi sığortanın tətbiqi: əhali sağlam olacaq, həkimlər qazanacaq...

yazısı səh.13-də

## Bakı bazarlarında qızıl qiymətinə qara kürü satılır

Kürünün ən ucuz qiyməti-100 qramı 70 manatadır; 17-ci əsrədək qara kürü kasıb kəndli yeməyi sayılırdı, indi isə...

yazısı səh.10-da



### Hadi Rəcəbli ilginc həyat hekayələrini danışdı

yazısı səh.5-də



### Tramp Türkiyəni F-35-lə "vurdu"- təfərrüat

yazısı səh.6-da



"Rəşad Gəncinski"

### ""Lənkəranski"ni "o biri dünyaya göndərdik" deyən avtoritet məhkəmə qarşısında

yazısı səh.14-də

# Bakıdan Gürcüstana gedən avtobusun sürücüsü narkotik qəbul edib?



İyun ayının 26-da Bakı-Laqodexi marşrut xətti üzrə hərəkətdə olan beynəlxalq daşımalara aid müntəzəm marşrut xəttində sürücü Şabanov Zaur Sabir oğlunun sükan arxasında narkotik vasitədən istifadə etdiyinə dair sərnişin tərəfindən iyul ayının 16-da daxil olan şikayət və videogörüntü ilə bağlı Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən araşdırılması üçün hüquq-mühafizə orqanlarına şifahi şəkildə məlumat verilib.

Bu barədə DANX-ın mətbuat katibi Nuridə Allahyarova bildirib.

N.Allahyarova qeyd edib ki, fakt öz təsdiqini taparsa, daşıyıcı şirkət ciddi xəbərdarlıq almaqla yanaşı, xətdən 1 ay müddətinə uzaqlaşdırılacaq:

"Sərnişinlərimizdən ricamız, bu cür hallarla və digər qayda pozuntuları ilə rastlaşdıqları təqdirdə ilk növbədə hüquq-mühafizə orqanlarına və avtomobil nəqliyyatı ilə daşımaları tənzimləməkdə məsul qurum qismində Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin 566-52-58 nömrəli Çağrı Mərkəzinə müraciət etsinlər. Hadisəni telefonla qeydə aldıqdan sonra 1 ay məlum olmayan səbəblərdən gizli saxlayaraq yayımlamasınlar. Çünki bu zaman həm aidiyyəti qurumun faktı araşdırması üçün çətinlik yaranır, həm də sərnişinin (şikayətçinin) bizə məlum olmayan səbəblərdən dolayı bir ay faktı üzə çıxartmadığı aydın olur".

DANX rəsmisinin sözlərinə görə, aidiyyəti üzrə araşdırılıb tədbir görülməsi üçün məlumatların birbaşa quruma ötürülməsi üçün sərnişinlərin dəstəyi vacibdir.



## Elmar Hüseynovun ailəsindən xəbər yoxdur

**Həyat yoldaşı Elmar Hüseynovun dostları ilə əlaqələrini kəsib. Bu barədə modern.az-a "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev məlumat verib. O bildirib ki, mərhum jurnalistin dostları onun ailəsi ilə dəfələrlə əlaqə yaratmağa çalışıb: "Elmar Hüseynovun ailəsi 2006-cı ildə Norveçə köçüb. Həmin vaxtdan onun həyat yoldaşı və oğlu ilə əlaqəmiz yoxdur. Dəfələrlə təşəbbüs göstərib, əlaqə yaratmağa cəhd etdik. Sadəcə, onlar uzaqlaşıb, Azərbaycanla əlaqə saxlamaq istəmirlər. Bilirik ki, Elmarın oğlu və həyat yoldaşı Norveçdədir, halbuki necə yaşayırlar, durumları yaxşıdır, ya pisdir - heç nə bilmirik".**

Xatırladaq ki, Elmar Hüseynov "Monitor" jurnalının yaradıcısı və baş redaktoru olub. 2005-ci ilin martında Elmar Hüseynov qətlə yetirilib.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**



## "Nar Wi-Fi" ilə bağ mövsümündə internetsiz qalma!




**İsti yay günlərini paytaxtdan kənarda keçirmək istəyənlər "Nar Wi-Fi" ilə yüksəksürətli internetə çıxış əldə edə bilər. İstirahət üçün bağa, başqa mənzilə və ya ofisə köçənlər, yaxud evində ənənəvi internetə qoşula bilməyənlərin "Nar Wi-Fi" internet paylayıcısını özləri ilə götürmələri yetərlidir. Qısa müddətdə "Nar Wi-Fi" ilə abunəçinin mənzili 4G şəbəkəsi ilə əhatə olunacaq. Bu avadanlıq sayəsində 30-dan artıq cihaz eyni anda sərfəli qiymətə yüksək sürətli internetə (LTE / 4G) çıxış əldə edir.**

**İstənilən məkanda sərfəli qiymətə yüksəksürətli internetə çıxış imkanı verməsi və mobil olması "Nar Wi-Fi" istifadəçilərinin sayının artmasına səbəb olub. Belə ki, son üç ayda "Nar Wi-Fi" istifadəçilərinin sayı 180% artıb. Siz də istənilən məkanda "Nar"-ın yüksəksürətli internetindən yararlanmaq istəyirsizsə, "Nar Wi-Fi" cihazını əldə edə bilərsiz. Ruterin satış məntəqələri haqqında daha ətraflı məlumatı nar.az ttps://www.nar.az/nar-wi-fi/ saytından öyrənmək olar.**

**Qeyd edək ki, avadanlığı abunəçinin özü rahat şəkildə quraşdıra bilər. Müvafiq tarifli SIM kartı ruterə daxil etdikdən və enerji mənbəyinə qoşduqdan sonra qurğu avtomatik olaraq işə düşür. Abunəçilər avans ödəniş etməklə həm qurğunu əldə edir, həm də 6 aya qədər internetə çıxış imkanı qazanır. Qeyd edək ki, "Nar Wi-Fi" ilə internet ADSL ilə müqayisədə daha sürətlidir və abunəçilərə 60 GB-a qədər limitsiz internet paketləri təqdim edilir. Qeyd edək ki, avadanlıq "Nar" 4G-LTE şəbəkəsinin əhatə etdiyi hər yerdə internetə çıxış əldə etmək imkanı verir.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7800-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**




## Azərbaycanın beynəlxalq axtarışa verdiyi şəxs Ukraynada yaxalandı

**Azərbaycanın beynəlxalq axtarışa verdiyi şəxs Ukraynada saxlanılıb.**

"Report"un məlumatına görə, "İnterpol" xətti ilə axtarışda olan 1965-ci il təvəllüdlü Nəsibov Məzahir Dursun oğlu Ukrayna ərazisində tutulub.

O, Azərbaycan Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham olunur.

M.Nəsibovun Azərbaycana ekstradisiyası üçün tədbirlər davam etdirilir.

O, 100-dən çox şəxsə qarşı 8 milyon manatlıq dələduzluq edib. Belə ki, M.Nəsibov Nərimanov rayonu, F.Yusifov küçəsi 40 ünvanında gözdən əlillər üçün tikilən 12 mərtəbəli 132 mənzilli binada bir qrup vətəndaşa mənzil satmaq adı ilə onlardan pul alıb. Amma bina gözdən əlillər üçün inşa olunduğuna görə vədinə əməl edə bilməyib və vətəndaşları aldadıb.



## 37 azərbaycanlı Çində təhsil almaq imkanı qazandı

**Azərbaycan Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında əməkdaşlığın nəticəsi olaraq, 2019-2020-ci tədris ili üzrə 37 nəfər azərbaycanlı gənc Çinin nüfuzlu universitetlərində təhsil almaq imkanı qazanıb.**

Təhsil Nazirliyindən verilən məlumata görə, müvafiq sazişə əsasən, seçim barədə Çin Xalq Respublikası tərəfindən verilən yekun qərar nəticəsində 37 nəfərbu ölkənin "Peking University", "Beijing Normal University", "University of Science and Technology Beijing", "Central China Normal University", "Shanghai University of Finance and Economics", "Fudan University" kimi ali təhsil müəssisələrində neft mühəndisliyi, proqramlaşdırma və kompüter elmləri, beynəlxalq münasibətlər, hüquq, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə bakalavriat (3 nəfər), magistratura (32 nəfər) və doktorantura (2 nəfər) səviyyələri üzrə təhsil almaq hüququ qazanıb.

Müvafiq təqaüd proqramı barədə elan (ttps://edu.gov.az/upload/file/ELAN/2019/01/%C3%87in-elan-2019-20.pdf) cari ilin 21 yanvar tarixində Təhsil Nazirliyinin saytında verilib.

## Azərbaycana gələn əcnəbilərin sayı 6 faiz artıb

**"Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin l yarımilində ölkəyə daxil olan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı 6 faiz artıb".**

Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bu ilin 6 ayının nəticələrinə həsr olunmuş mətbuat konfransında deyib.

O bildirib ki, bu ilin yanvar-iyun aylarında ölkədə müvəqqəti yaşayanlarda 0.4 faiz, iş icazəsi alanlarda 14 faiz, qaçqın statusu üçün müraciətlərdə 53 faiz artım müşahidə olunur.

V.Hüseynov əlavə edib ki, bu müddət ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı qəbul edilən qərarların sayında 34 faiz azalma var:

"Qurum tərəfindən vətəndaş məmnunluğu sahəsində görülən işlərin nəticəsidir ki, müraciətlərin sayında 8 faiz azalma qeydə alınıb. Hesabat dövründə "Çağrı mərkəzi"nə daxil olmuş zənglərin sayı isə 53.303 olub".

## Bu il Azərbaycanda 75 nəfər vətəndaşlığa qəbul olunub

**"Bu il Azərbaycanda 75 nəfər vətəndaşlığa qəbul olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daimi yaşamaq üçün icazə almaq istəyənlərin sayında 31 faiz azalma müşahidə olunub. Bu icazələr üçün əsasən Gürcüstan, Rusiya, Türkiyə, İran, Ukrayna və digər ölkələrin vətəndaşları müraciət edib".**

Bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov 2019-cu ilin 6 ayının yekunlarına dair keçirdiyi mətbuat konfransında deyib.

O qeyd edib ki, Azərbaycanda daimi yaşamaq üçün 1694 nəfərə icazə verilib: "Onlardan 347 nəfəri Gürcüstan, 225 nəfəri Rusiya, 95 nəfəri Türkiyə, 43 nəfəri Ukrayna və İran vətəndaşlarıdır".

## Rusiyada atom elektrik stansiyasında qəza baş verdi

**Rusiyanın Tver vilayətindəki Kalinin atom elektrik stansiyasında (AES) qısaqapanma baş verib.**

Virtualaz.org "360" teleqram-kanalına istinadən xəbər verir ki, qısaqapanmadan dərhal sonra üç enerji bloku söndürülüb.

Stansiyanın özündən bildirildiyinə görə, radiasiya fonunda dəyişiklik yoxdur, avadanlıq zərər çəkməyib.

## "Rustavi 2"nin baş direktoru istefaya göndərildi

**"Rustavi 2" telekanalının baş direktoru Niko Qvaramiya istefaya göndəriləcək. Modern.az Gürcüstan KİV-nə istinadən xəbər verir ki, iş adamı Kibar Xalvaş bu barədə "Twitter"də yazıb.**

İş adamı vəkili Paata Saliyanın baş direktor səlahiyyətlərini üzərinə götürəcəyini əlavə edib.

"Mən redakisya siyasətinə toxunmaq istəmirəm. Söz və ifadə azadlığına riayət olunacaq",- deyə Xalvaş bildirib.

## Türkiyədə avtobus qəzası: 15 nəfər öldü, 27 yaralı var

**Türkiyənin Van bölgəsində mikroavtobus qəzaya uğrayıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, hadisə Vanın Özalp rayonunun Sürüyolu məhəlləsində qeydə alınıb.

Miqrantları daşıyan mikroavtobusun dərəyə yuvarlanması nəticəsində 15 nəfər ölüb, 27 nəfər yaralanıb.

Qəzanın səbəbləri məlum deyil. Hadisə yerinə xilasedicilər, təcili tibbi yardım heyəti və polis əməkdaşları cəlb olunublar.

Yaralıların bəzilərinin vəziyyətinin ağır olması səbəbindən ölü sayının artacağı istisna edilmir.

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

# Dünyada dələduz mühacir mafiyası insanları necə tora salır - şok detallar

## Ağlasığmaz üsullar, dil bilməyən mühacirlərin istismar hekayələri "Yeni Müsavat"da

**Bu günlərdə Azərbaycanda saxta mühacir biznesi ilə bağlı qalmaqal yaşanır. Avropada yaşayan bir qrup azərbaycanlının viza, mühacir sənədi düzəltmək üçün yaratdığı biznes şəbəkəsinin detalları barədə yerli media yazıb. Amma bu məsələnin daha qorxunc tərəfləri də var. Belə ki, Avropadakı işbaz şəbəkələr mühacir olmaq istəyən insanları yalan və şirnikləndirici vədlərlə olduqları ölkələrə gətirir, sonra isə istismar edirlər.**



**Polyak şəbəkə insanları Böyük Britaniyaya çağırır, sonra isə...**

"Yeni Müsavat" son günlər Böyük Britaniyada yaşanan bir qalmaqalla bağlı detalları sizinlə bölüşür. Bu qalmaqal mühacir adı ilə xarici ölkələrə getmək istəyənlərin düşəcəyi tələlər barədədir.

Böyük Britaniya polisi növbəti dəfə işədüzəltmə şəbəkəsini çökdürüb. Birminqemdəki məhkəmə 8 polyakı 3 ildən 11 ilə qədər cəzalandırıb. Polşadan olan üç qadın və beş kişi öz həmyerlilərini yüksək məvacib və asan həyat vədləri ilə aldadıb. İnsanlar Böyük Britaniyaya gələndə onlara yüksək məvacibli iş əvəzinə, qurbanlara yarım dağılmış tikilidə nimdaş döşək üzləri və 14-16 saatlıq iş təklif edilib. Bundan başqa, onlar məvacibi də tamamən almayıblar. Məhkəmə prosesi zamanı qurbanlar bildiriblər ki, Böyük Britaniyadakı "bomj"lar onlardan daha yaxşı yaşayırlar. Polisin araşdırmasına görə, qurbanların böyük bir qismi yerdə yatmamaq üçün atılmış döşək üzlərini toplayır və Birminqem kanalında çimirdi.

Dözülməz şəraitdən şikayətlənməyə cəhd edib kişilərdən birinin əlini qırıblar, digərini isə insanların qabağında lüt soyundurublar. Sonuncunu həm də onunla təhdid ediblər ki, növbəti dəfə belə cəhd edərsə, böyrəkləri çıxarılacaq.

Cinayətkarlar qurbanların bank hesabına nəzarət edib, onların məvaciblərini oğurlayıblar. Bununla onlar 2 milyon funt-sterlinq məbləğində pul yığa biliblər. Bandanın hər bir üzvünün bahalı maşınları və gözəl mənzilləri olub.

Cinayətkarlar Polşada aşağı məvacibli, maddi durumu pis olan insanları seçiblər. Bəzənsə türmənin qapıları ağzında yeni namizəd, qurban tapmağa çalışıblar.

Britaniya polisinin fikrincə, bu, Böyük Britaniya ərazisində müasir quldarlığın ən bariz nümunəsidir. Qurbanların sayı 400-dən artıqdır, amma onlardan cəmi 90 nəfəri məhkəmədə ifadə verib.

**Almaniya yerinə ingiltərəyə aparıblar, işə düzəldib, maaşını əlindən alıblar**

Almaniyadakı qurbanlardan biri isə öz hekayəsini danışıb. Lukaş bütün yay boyu Polşa sirkində montajçı kimi çalışıb. Amma mövsüm bitib və o, işsiz qalıb. Tanış olduğu bir nəfər ona Almaniyada yaxşı iş təklif edib. Ona avtobusa bilet alıb və ilk vaxtlar üçün otel pulunu da ödəyib. Lukaş onu bir daha görməyib. Avtobusa minəndə isə anlayıb ki, Almaniyaya yox, İngiltərəyə gedir. Amma bu zaman da öz-özünə düşünüb ki, hara getməyin önəmi yoxdur. Əsas məsələ işdir, pul qazanmaqdır.

Avtovağzalda isə onu qaraçı əsilli Polşa vətəndaşı qarşılayıb. O, Lukaşı öz evinə aparıb. Orada da arvadı və uşaqları ilə birgə yaşayırmış. Onun beş qardaşının da öz evləri olub və polyak həmyerlilərini iş üçün ölkələrindən gətizdiriblər.

İlk iki ay tərəvəz fermasında və zavodda zibil çeşidləyici olaraq çalışan polyak görüb ki, onun hamisi kirayə, işıq, su və digər kommunal xərclər üçün gündən-günə daha çox pulunu əlindən alır. Hətta o qədər ki, ona hətta yemək üçün də pul saxlamır. Böyük Britaniyada bu sayaq hekayələr 2018-ci ildə 5000-ə yaxın olub, onlardan 3000-i polyakların payına düşüb.

**Sxem necə çalışır?**

Himayədar işçini işə gətirir, onu ingilis işəgötürən işlə təmin edir və tamamən vicdanlı şəkildə haqq etdiyi məvacibi da onun hesabına köçürür. Bu məbləğ o qədər nəhəng olmasa da, hökumətin qaçqınlar üçün nəzərdə tutduğu bütün proqramlardan yararlanmaqla yaxşı yaşamaq mümkündür. Amma işçinin bank kartı da pasportu və digər sənədləri kimi himayədarının əlində olur. İşçi ingilis dilində ancaq "yes" və "no" sözlərini bilir. Harasa getmək, kiməsə şikayətlənmək imkanları, demək olar ki, yoxdur. Bundan başqa, qorxu faktoru da onu sakit oturmağa və başına gələnlərə reaksiya verməməyə sövq edir. Çünki ac-yalavac qalsa da, ümid edir ki, bütün hallarda sonda onu azad edəcəklər.

Xatırladaq ki, bu sayaq qanun pozuntuları nəinki Böyük Britaniyada, bir çox Avropa ölkələrində var. Bu baxımdan da əmək miqrantlarının aldadılması, istismar edilməsi halları hər zaman baş verir. Kasıb ölkələrdən gələn kasıb və qorxmuş insanları daha çox onların öz həmyerliləri istismar edəcək. Amma bu situasiyaya düşmüş insanların yeganə təsəllisi odur ki, polis hər zaman bu sayaq halların üstünü açır, zərərçəkmişlər yerli xəstəxanalarda müalicə oluna bilir. Bu zaman onların sığorta və digər xərclərini işəgötürən həll edir. Amma dil bilgisi olmadan iş birjasına düşmək şansı, demək olar ki, sıfıra bərabərdir.

Bu ilin əvvəlində oxşar dələduzluq əməlinə görə Ukraynada da bir dəstəni yaxalayıblar. Ər, arvad və arvadın anasından ibarət cinayətkar dəstə Ukraynadan Böyük Britaniyaya qızlar gətizdirir, onları otel və barlarda işə düzəldir, böyük məvacib, yaşayış yeri və qidalanma vədi verirmişlər. Reallıqda isə onlara yeməyi və yaşayış yerini işəgötürən verib. İş üçün gedən qızların hər biri onlara bank hesabı açmaları üçün ailəyə etibarnamə verib. Bu da o demək idi ki, qızların bank hesabına nəzarət birbaşa dəstənin əlində idi. İşin üstünün açılması isə ilk iki ayda qızların bank hesabına pul oturmaması ilə açılıb. Zərərçəkən otelə gedərək nə baş verdiyini öyrənməyə çalışanda isə məlum olub ki, bu qızların sayı 40-a yaxındır. Açdıqlarını iddia etdikləri hesab isə, ümumiyyətlə, çalışmır. Əvəzində isə pul başqa hesaba transfer edilib və qızlara bir sent də olsun maaş verilməyib.

Yunanıstanda da məhz bu cür hekayələr tez-tez yaşanır. Buna səbəb də dil bilgisi olmayan insanların belə tələlərə olduqca tez düşməsidir.

**Qadınları isə mühacir adı ilə bu yola yönləndirirlər**

Britaniyanın dünyaca məşhur BBC telekanalı isə 2017-ci ildə Avropa qitəsinə səs salacaq, olduqca maraqlı bir reportaj hazırlamışdı. "Satılan insanlar" başlıqlı araşdırmada Şərqi Avropa ölkələrindən aldadılaraq qitənin qərbinə gətirilən və zorla fahişəliyə cəlb olunan qadınlardan bəhs edilir.

Prosesin nə cür və hansı formada həyata keçirilməsinin bütün detalları araşdırmada yer alıb. Aldadılan qadınların daha çox Birləşmiş Krallığa gətirildiyi və ölkədə oturum icazəsi almaq istəyən Asiya mənşəli kişilərlə evləndikləri qeyd olunub.

"Yalan vədlərlə aldadılaraq İngiltərə və Şotlandiyaya gətirilən rumınıyalı, slovakiyalı yoxsul qadınlar, ölkədə oturum icazəsi almaq istəyən çinli, pakistanlı mühacirlərin xoş vədlərinə aldanaraq onlarla evlənirlər" - Avropa Polis Təşkilatının (Europol) insan qaçaqçılığı üzrə mübarizə şöbəsinin rəhbəri Anjelika Molnar BBC-yə açıqlamasında deyib: "Haqqında danışdığımız qadınlar Şərqi Avropanın nisbətən yoxsul ölkələri olan Rumıniya və Slovakiyadandır. Lakin söhbət təkcə bu ölkələrdən getmir, Şərqi Avropanın digər bölgələrindən də yoxsul qadınlar aldadılaraq qərbə gətirilir. Daha sonra həmin qadınlar inanaraq etibar etdikləri pakistanlı, çinli, hindli kişilərlə evlənirlər. Faciə də məhz bundan sonra başlayır. Bir müddət keçəndən sonra həmin qadınlar anlamağa başlayırlar ki, onlarla evlənən kişilərin əsas məqsədi yaşadıqları ölkədə ömürlük oturum icazəsi almaqdır".

Şöbə rəhbərinin sözlərinə görə, sonraki proses daha acınacaqlıdır: "Çölə atılmaqdan qorxan qadınlar həmin Asiya mənşəli kişilərin quluna çevrilirlər. Onlar nə desələr, əməl etməyə məcbur qalırlar. Şantaj olunurlar. Və sonda pul qarşılığında digər kişilərə satılır, fahişəyə çevrilirlər".

BBC telekanalının gizli çəkiliş qrupu mövzunu daha dərindən araşdırmaq üçün qadınların gətirildiyi yerə - Şərqi Avropaya gedib. Jurnalist Sem Polinq insan qaçaqçılarının gizli iş üsullarını, zəncirvari prosesi yerində öyrənib. Araşdırma nəticəsində məlum olub ki, qadınlar Qərbi Avropaya aparılmadan öncə "tranzit evlərə" yerləşdirilir.

BBC-nin çəkiliş qrupu Slovakiyanın şərqində yerləşən bu cür evlərdən birini tapa bilib. Qadınlar Şotlandiyaya aparılmadan əvvəl bir neçə gün bu evlərdə qalırlar. Saxta evliliyə məcbur edilən qurbanların xilas ola bilməsi üçün Slovakiya və Şotlandiyadakı rəsmilərlə yaxından çalışdığını deyən və özünü ictimai xadim olaraq tanıdan İves Oqiu, jurnalist Sem Polinqə həmin evlərdən birini göstərib.

Ətrafı hündür divarlarla hörülən "tranzit ev"lərin bütün qapı-pəncərələrinə kameraların quraşdırılması xüsusilə diqqət çəkib. Slovakiyalı xeyriyyəçi İves Oqiu buradakı bəzi qadınların nəinki pasportları, hətta şəxsiyyət vəsiqələrinin belə, olmadığını deyir.

"Lakin maraqlıdır ki, cəmi 24 saat içində alverçilər həmin qadınlara şəxsiyyət vəsiqəsi və pasport düzəldə bilirlər. Deməli, qadın qaçaqçılığı işinə dövlətdən də gizli yardımlar edilir. O zaman bu şəbəkəni tam olaraq üzə çıxarmaq olduqca qəlizdir"- İ.Oqiu bildirib.

Adı açıqlanmayan slovakiyalı gizli agent isə deyib ki, qadınlar "tranzit ev"də qalarkən cinayətkar şəbəkə onlara daha gözəl görünmələri üçün xüsusi geyimlər verir: "Baxmayaraq ki, qaldıqları yer bərbaddır, hətta su da yoxdur, ancaq yaxşı qiymətə satıla bilmələri üçün qadınların gözəl görünmələri vacibdir. Qaçaqçılar bunu nəzərə alaraq onlara pul xərcləməkdən çəkinmirlər".

Jurnalist Sem Polinqin araşdırmasının yekununda bəlli olub ki, aldadılan qadınlar daha çox Şotlandiyaya aparılır. Şotlandiya hökumətinin rəsmi statistikasına görə, təkcə 2016-cı ildə 150 qadın insan alverinin qurbanına çevrilib. Həmin qadınlar hazırda fahişəliyin və narkomaniyanın əsiridirlər.

İngilis jurnalist hazırladığı reportajın sonunda şəxsi mövqeyini də yazıb. "Nədənsə bu iyrənc şəbəkənin işinə dövlətlər ciddi müdaxilə etmir. Cinayətkarlar cəzalandırılmır. Həmin qadınlara saxta pasportlar necə hazırlanır? Onlara bu sənədləri hansı dövlət qurumları verir? Bu suallara cavab tapmadıqca, "insan alveri ilə mübarizə" sadəcə, saxta bir deyim olaraq qalmağa davam edəcək", - Sem Polinq bildirib.

**Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

# Keşikçidağı ilə bağlı Tiflis və Bakıdan maraqlı təkliflər

## Sərhədlərin hər iki tərəfdən açılması, muzey statusu verilməsi...



**"Artparalel" teleradio-prodüser mərkəzinin direktoru, Beynəlxalq Siyasi Münasibətlər və Politoloji Elmlər Mərkəzinin həmtəsisçisi və vitse-prezidenti Tengiz Txilava Keşikçidağı ilə bağlı problemin həlli üçün təkliflə çıxış edib. O qeyd edib ki, məsələnin həlli sərhədlərin hər iki tərəfdən açılması və turistlərin bir ölkədən digərinə keçərək kompleksə tam baxa bilmələri, din xadimlərinin ibadət etmək üçün bütün müqəddəs yerlərə buraxılmasındadır: "Mövzu çox həssasdır və onu incəliklə həll etmək lazımdır. Aydındır ki, David Qareci monastırının bir hissəsi Gürcüstan, digər hissəsi Azərbaycan ərazisində yerləşir. Məsələnin həlli - sərhədlərin hər iki tərəfdən açılması və turistlərin bir ölkədən digərinə keçərək kompleksə tam baxa bilmələri, din xadimlərinin ibadət etmək üçün bütün müqəddəs yerlərə buraxılmasındadır".**

Bəs bu təklif əslində sözügedən məbədin-ərazinin neytral zona kimi qəbul edilməsi təklifi sayıla bilərmi və qəbul ediləcək təklifdirmi?

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, sovet imperiyası keçmişdə sərhədləri elə cızıb ki, gələcəkdə yeni münaqişələr üçün zəmin olsun. Bu baxımdan Keşikçidağ məbədi Gürcüstan və Azərbaycan arasında təfriqə mənbəyidir. Baxmayaraq ki, iki ölkəni birləşdirən çoxmilyardlıq layihələr, investisiyalar və s. var, amma bir məbəd üzərindən zaman-zaman təxribatlar üçün spekulyasiyalar müşahidə edilir: "İki ölkə sərhədlərinin delimitasiya və demarkasiya prosesi başa çatana qədər məbəd ətrafı xüsusi rejimli ərazi hesab oluna bilər. Oraya giriş-çıxışın dəqiq vaxtı müəyyənləşdirilməli, xüsusi təhlükəsizlik tədbirləri görülməli, təxribatları önləmək üçün xüsusi qaydalar hazırlanmalıdır.

Ümumiyyətlə, müqəddəs məbədgahlar, kilsələr, məscidlər bir çox hallarda dövlətlərarası münasibətlərdə gərginliyə yol açıb. Gürcüstan üçün məbəd kimi önəmli olan Keşikçidağ Azərbaycan üçün alban irsinin abidəsi kimi önəmlidir. Mən şəxsən Keşikçidağın Ayasofiya kimi muzeyə çevrilməsinin tərəfdarıyam. Hazırda həmin məbəd ziyarətgah yeri olduğu üçün, yəqin ki, ora giriş sərbəstdir. Lakin muzey statusu alarsa, ibadətgah kimi yox, mədəni abidə kimi rejim müəyyən edilə bilər. Gürcü tərəfinin buna narazılığı olsa da, nəzərə alaq ki, abidə üzərində Azərbaycanın ən çox hüququ var. Bizim ərazimizdə yerləşir, qədim əcdadlarımız olan albanların irsidir".

Politoloq vurğuladı ki, Gürcüstan Azərbaycan kimi qiymətli müttəfiqlə münasibətlərinə xələl gətirməməlidir. Odur ki, məbədin ümumdünya sivilizasiyasına töhfə kimi muzeyə çevrilməsi münaqişəli vəziyyətdən ən doğru çıxış yolu olardı.

**Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Aydın Mirzəzadə** isə bildirib ki, Azərbaycan və Gürcüstan istənilən məsələni qardaşlıq və beynəlxalq hüquq əsasında həll etmək bacarığındadır: "Məbəd Azərbaycan ərazisində yerləşir və bu, 1963-cü ildə Gürcüstan SSR Ali Sovetində təsdiq edilmiş topoqrafik xəritədə təsbit edilib".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** isə bildirib ki, yaranmış vəziyyətə uyğun olaraq Azərbaycan öz siyasətini aktivləşdirməli və təşəbbüsü ələ almalıdır. İlk növbədə kənar qüvvələrin dəstəyi ilə həyata keçirilən təxribatların qarşısını alaraq münaqişənin yaranmasına imkan verməməlidir. Bu məqsədlə Gürcüstanla danışıqlar prosesi daha aktiv fazaya keçirilməlidir: "Keşikçidağ ərazisində xüsusi şəraitin yaradılmasına çalışılmalıdır. Yəni ora gələn ziyarətçilər və turistlər özlərini rahat hiss etsinlər. Təbii ki, Keşikçidağ məbəd ərazisi Azərbaycanın ərazisi olaraq qalmalıdır. Orada gələn turistlərin təhlükəsizliyini təmin etmək, hər hansı təxribatlara yol verilməməsi üçün müştərək qurum yaradılmalıdır. Ora hətta Azərbaycandan gələn turistlərin də səfərlərini təşkil etmək yaxşı olar. Bu onlar üçün maraqlı olar. Belə bir layihə reallaşdırılsa yaxşı olardı.

Yeni münaqişə tendensiyasının qarşısını almaq üçün alterativ tendensiya ortaya qoyulmalıdır. Bu, birgə əməkdaşlıq tendensiaysı olmalıdır. Burada Azərbaycan daha fəal olmalıdır. Prosesə sərhədlərin delimitasiyası və demorkasiyası ilə yanaşı, mədəniyyət, turizm, hətta dini qurumlara aid müvafiq təşkilatlar da cəlb oluna bilər".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Beynəlxalq maliyyə qurumlarından manata etimad - istiqrazlar nə vəd edir?

## Rəşad Həsənov: "Əldə olunan vəsaitlər biznes kreditləşməsinə yönəldilməsə..."




**Azərbaycanda ilk dəfə beynəlxalq maliyyə institutu tərəfindən milli valyutada istiqraz emissiya ediləcək. "Yeni Müsavat" Maliyyə Bazarlarına Nəzarət Palatasına (MBNP) istinadən xəbər verir ki, qurum tərəfindən iyulun 16-da Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) 10 milyon manatlıq istiqraz emissiyası dövlət qeydiyyatına alınıb. Bu rəqəmin ilin sonunadək 50 milyon manata çatdırılması nəzərdə tutulur.**

730 gün müddətində dövriyyədə olacaq və hər birinin nominal dəyəri 1 000 manat olan 10 min ədəd faizli, təminatsız, sənədsiz, adlı istiqrazların illik gəlirliliyi 9,25 faiz təşkil edəcək. Faiz ödənişləri 3 aydan bir həyata keçiriləcək. Qiymətli kağızlar kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-də (BFB) yerləşdiriləcək.

MBNP-də hesab edirlər ki, beynəlxalq maliyyə institutları tərəfindən yerli bazarda buraxılacaq istiqrazlar ölkədə sahibkarlığın inkişafına dəstək olacaq, kiçik və orta bizneslərin uzunmüddətli ucuz maliyyə resurslarına çıxış imkanı təmin edəcək: "Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin "Maliyyə bazarlarının inkişafı"na dair 2-ci strateji hədəfində emitentlər və maliyyə vasitəçiləri üçün əlverişli mühit yaradılması, listinqə çıxışı məhdudlaşdıran amillərin aradan qaldırılması, stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və yeni listinq prosedurlarının hazırlanması müəyyən edilib. Qeyd edilən tədbirlərin icrası məqsədilə beynəlxalq maliyyə institutlarının istiqraz emissiyasına qanunvericilikdə mane olan amillərin aradan qaldırılması üzrə MBNP "Qiymətli kağızlar bazarı haqqında" qanuna dəyişikliklər layihəsi hazırlayıb və həmin dəyişikliklər 1 fevral 2019-cu il tarixində qüvvəyə minib. Eyni zamanda beynəlxalq təşkilatların emissiyasının təşviq edilməsi məqsədilə BFB-nin listinq qaydalarına dəyişikliklər edilərək, beynəlxalq maliyyə institutlarının spesifikasiyasına uyğun daha sadə listinq tələbləri müəyyən edilib. Həyata keçirilmiş tədbirlər beynəlxalq təşkilatların yerli qiymətli kağızlar bazarına olan marağını artırıb və əlavə stimullar formalaşdırıb".

Qeyd edək ki, QDTİB Qara dəniz ətrafı ölkələrinin regional inkişafı və əməkdaşlığına dəstək məqsədilə 1999-cu ildə yaradılıb. Azərbaycan da daxil olmaqla 11 ölkənin üzv olduğu təşkilatın əsas fəaliyyət istiqaməti Qara dəniz regionu ölkələrində iqtisadi tərəqqinin və regional əməkdaşlığın inkişafı məqsədilə üzv ölkələrdə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi, ticarətin və digər layihələrin dəstəklənməsi, müxtəlif təminatların verilməsi, həmçinin dövlət və özəl təşkilatların kapitalında iştiraka fokuslanıb.

Bankın istiqrazların qısa müddətə yerləşdirilməsi, sözügedən təşkilat tərəfindən 2019-cu və 2020-ci illərdə daha böyük məbləğlərdə Azərbaycan qiymətli kağızları bazarında istiqraz emissiyası və cəlb olunmuş vəsaitlərin ölkədə sahibkarlığın inkişafına yönəldilməsi nəzərdə tutulub.

**İqtisadçı-ekspert Rəşad Həsənov**un "Yeni Müsavat"a bildirdiyinə görə, bundan əvvəl də müxtəlif beynəlxalq maliyyə qurumları tərəfindən belə təşəbbüslər göstərilib: "Amma faktiki olaraq bu istiqamətdə real addımın atılması Azərbaycan üçün ilk haldır. Proqram iki illik bir dövrü əhatə edir. İlk emissiya kiçik bir məbləği - 10 milyon manatı əhatə edir. Bu baxımdan onun maliyyə sektoru və iqtisadiyyatda hansısa ciddi təsirlərini gözləmək mümkün deyil. Əsas müsbət təsirlərdən biri qiymətli kağızlar bazarının inkişafı ilə bağlı olacaq. Bu addım qiymətli kağızlar bazarında aktivliyə gətirib çıxara bilər".

Manatla istiqrazların emissiya edilməsi manatın məzənnəsinə dair gözləntilərlə bağlıdır: "Bu gözləntilər daha çox manatın məzənnəsində dəyişikliklərin olacağı ehtimalından xəbər verir. Düzdür, hökumət və Mərkəzi Bank manatın məzənnəsini üzən rejimə keçirdiklərini elan etsə də, hələ ki, bu keçid baş verməyib. Məzənnə faktiki olaraq Mərkəzi Bank tərəfindən tənzimlənir. Çünki iqtisadiyyatı sabit məzənnə ilə idarə etmək daha rahatdır".

İqtisadçının fikrincə, istiqrazlardan əldə olunan vəsaitlər yığım üçün yararlı sayıla bilməz, çünki kifayət qədər bahalı vəsaitlərdir: "Belə ki, istiqrazlar 9,25 faizlə yerləşdirilib, halbuki bu gün ölkədə manatla əmanət faizləri 6-7 faizdən yuxarı deyil. Əmanətlərdən daha yüksək faizin tətbiq olunması əldə ediləcək vəsaitlərin yüksək gəlirli sahələrə yönəldilməsini tələb edir. Rəsmi açıqlamaya görə, cəlb olunan vəsaitlər sahibkarlığın inkişafına yönəldiləcək. Bu, o deməkdir ki, həmin vəsaitlər azı 12-13 faizlə biznes kreditləşməsinə yönəldilməlidir ki, bank gəlir əldə edə bilsin. Bu, baş verməsə, əldə olunan vəsaitlər yığıma yönəldiləcəksə, deməli, istiqraz emissiya edən qurumun yaxın vaxtlarda manatın məzənnəsində kəskin ucuzlaşma gözləntiləri mövcuddur. Yəni bank istiqrazlardan əldə etdiyi manatı xarici valyutaya çevirib saxlayacaq, məzənnə dəyişikliyi zamanı daha çox manat əldə etməklə həm faizləri ödəyəcək, həm də gəlir əldə edəcək. Bildiyiniz kimi, Moody's və digər reytinq agentlikləri yaxın 2 ildə manatın ucuzlaşacağını proqnozlaşdırır. Düşünürəm ki, manatla istiqraz emissiya edənlər bu kimi proqnozları nəzərə almamış deyillər".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Yeni Müsavat"a geniş müsahibə verib. Olduqca maraqlı məqamlarla zəngin olan müsahibənin ikinci bölümünü təqdim edirik. Hadi müəllim bu yerdə Xəzərin hasarlanması, çimərliklərin zəbt olunması ilə bağlı sualları cavablandırır...**

# Hadi Rəcəbli ilginc həyat hekayələrini danışdı

## Deputat: "Hüseynbala Mirələmovla birlikdə pomidor yeşikləri mıxlayardıq"

(Əvvəli ötən sayımızda)

***- Şəxsən sizin konkret təklifiniz varmı?***

- Gəlin onda çimərlikləri bələdiyyələrə verək. Yəni kimsə ona baxsın. Mən də razıyam, çimərliyə hasar çəkmək olmaz, gəlin çimərliyə hasar çəkənin əlini kəsək. Amma bəs, çimərliklərə kim baxsın? Çətir, ya uzanmaq üçün yer yoxdur. Qumun üstündə siqaret, daş, dənizdən çıxan kötük, şüşə qırıntıları, orda çimmək olar? Yəni bunun haqqında düşünmək lazımdır. Başsız, yiyəsiz necə olar? Onda meşəni də buraxaq xalqın ixtiyarına, kim istəyir getsin, ağacları doğrayıb aparsın? Çimərliklərdə şərait yaradanlar orda əl-üz yuyan, tualet qoyub, duş qoyub. Bunları niyə qiymətləndirmirlər? İstəmirsənsə, onda get, mamırın içində, ağac kötüyünün üzərində çim, siqaret kötükləri ilə dolu qumda uzan! Elə bilirsən Lənkəranda Xəzərin hər tərəfində çimmək olur? Bir yerdə daş, digərində qamış, palçıq var. Gərək biz bu məsələdə də hissə qapılmayaq.

***- Son vaxtlar AzTV-də parlamentin fəaliyyətini işıqlandıran xüsusi veriliş yayımlanır. Bəzən deputatlar telekanallardan gileylənirlər. Sizin münasibətiniz necədir?***

- Parlamentin fəaliyyəti ilə bağlı televiziyada "Parlament səhifəsi" yaradılıb. Mən bunu belə görmək istəməzdim. Əgər feysbuk səhifələri üzərindən deputatlar haqda bu qədər mənfi fikirlər yayılırsa, onları haqq-nahaq təhqir edirlərsə, gəlin efirdə onların da tərcümeyi-halından danışaq da! Mən gəldim çıxış etdim, qanunlardan danışdım, hə, nə olsun? Yenə də həmin fikirlər yazılacaq. Sən gəl mənim tərcümeyi-halımdan başla. 119 deputatın hərəsi haqqında 10 dəqiqəlik məlumat ver. Məsələn, mən istərdim elə sizin "Yeni Müsavat" qəzeti nümunə göstərsin. Göstərsin ki, filan deputat kimdir...

***- Əksər deputatlar özləri açıq olmağa maraqlı deyillər. Biz məmnuniyyətlə onları efirimizə dəvət edirik. Elə sizi də redaksiyamızda görmək istərdik.***

- Yox, mən istəmirəm. Yenə başlayacaq söyüş, təhqir... Mən qəzetinizdə öz sözümü deyirəm.

***- Hadi müəllim, Rəqabət Məcəlləsinin qəbuluna kimlər və nələr mane olur?***

- Vallah, bilmirəm nə məsələdir... Amma bu dəqiqə sahibkarlığın, bazar iqtisadiyyatının qanunlarının üç başlıca faktoru var: birincisi, əmlakın toxunulmazlığı; ikincisi; antimonopol siyasət; üçüncüsü, əlbəttə, pul-kredit bazarında sərbəstlik, aşkarlıq, güzəşt, həvəsləndirmə elementləri olmalıdır. Ola bilər ki, sahibkara faizsiz kredit verərsən, getsin əksin, becərsin. Beləliklə, bu 3 faktor çox vacibdir. Əmlakın toxunulmazlığı odur ki, icra başçılarına deyirik sənin bununla işin olmasın! Antimonopoliya odur ki, bir dənə varsa, digəri də açılsın, rəqabət yaransın və nəyəsə nail olaq.

***- Görünür, rəqabətin yaranmasını istəməyən monopolistlər imkan vermir qanunun da qəbuluna, elə deyilmi?***

- Mən düşünürəm ki, möhtərəm prezidentimizin burada da çox kəskin addımları gözlənilir. Prezidentimiz bazar qanunlarına əməl olunmasını istəyir. Gömrüklə vergidə olan prosesləri gördünüz. Çoxları heç buna inanmırdı. Düşünürdülər ki, gömrükdə necə dəyişiklik etmək olar? Buyurun, görürsünüz, alındı. Düşünürəm ki, digər sahələrdə də zaman-zaman addımlar atılacaq və biz burda da nəsə görəcəyik.

***- Bu günlərdə Ümumdünya Əhali Günü ilə bağlı siz rayonlarda bir sıra silsilə tədbirlər keçirdiniz.***

- Əhalinin artımı bizə nə deyir? Artan əhaliyə biz yemək, iş verməli, onun üçün şərait yaratmalıyıq. Təsəvvür edin, bizdə 2014-cü ildən 2018-ci ilədək əmək qabiliyyətli vətəndaşların, iqtisadi əmək qabiliyyətli adamların sayı 300 min nəfər artıb.

***- Belə olan halda maaş, təqaüd artımı ilə yanaşı, yeni iş yerlərinin, istehsal sahələrinin yaradılması da zərurətə çevrilir...***

- Mütləq! Biz təbii artımdan danışırıq. Amma digər qol da var. Bu gün sahibkar əmək məhsuldarlığının yüksəlməsini, az xərclə daha çox məhsul əldə etmək, az məsrəflə daha çox qazanc götürmək, az işçi ilə daha çox məhsul ortaya qoymaq istəyir. Sahibkarın məqsədi odur ki, daha az adamı işlətsin, daha az adama maaş versin, malın maya dəyəri artmasın. Deməli, iki, bir-birinə daban-dabana zidd proseslər gedir: biri dövlət, biz, QHT-lər, bələdiyyələr, vətəndaşlar istəyir iş yeri yaransın, digər tərəfdən azad iqtisadiyyat deyir işçilərin sayı azalsın, əmək məhsuldarlığı yüksəlsin, proseslər avtomatlaşsın, mexanikləşsin. Məsələn, pambığı əllə yox, maşınla yığırlar. Həmçinin pambığın əkilməsi, suvarılması, ona gübrə verilməsi belə mexanikləşib. Deməli, daha az işçi qüvvəsi tələb olunur.

***- Azərbaycan əhalisi dünya əhalisi içərisində həyat şəraitinə görə hansı pillədə dayanır? Bu gün dünyada həyat şəraiti aşağı olan, aclıqdan əziyyət çəkənlər də var...***

- Biz onların heç birisi ilə müqayisə oluna bilmərik. Mən istəmirəm Amerika ilə müqayisə edim. Azərbaycan əhalisinin durumu ABŞ-ın çoxlu ştatları var e, onların bəzilərindən...Reallıq budur ki, o ştatların əhalisi qənaətlə yaşayır. Onlar işığa, ərzağa qənaət edir, pullarını səmərəli xərcləyirlər. Əlbəttə, mən də istərdim ki, Azərbaycanın əhalisinin sosial durumu daha yüksək olsun, kasıblıq bir az da azalsın, kəndlərdə iş yerləri çoxalsın, əməkhaqqında yüksək artım olsun. Amma bizim ölkəmizdə gedən proseslərə bax: ölkəmiz müharibə vəziyyətində olmağına baxmayaraq, adamlarımız belə də fəlakətli vəziyyətdə yaşamırlar, küçələr dilənçilərlə dolmayıb. Mən nə deyirəm? İşləmək istəyən, pul qazanmaq istəyən adama yer, şərait var, evinə çörək apara bilir. Bəlkə belə deyil? Bəlkə də pis səslənir. Amerikada, Yaponiyada əməkhaqqının böyük hissəsi xidmət sahəsindən gəlir. Xidmət sahəsində çalışanlar məşğulluğun böyük hissəsini tuturlar. Bizdə də bu var, səsə salmırıq, demirik. Bağda qarovulçular var, ailələrdə xüsusi sürücülər var, evlərdə dayələr, qulluqçular var. Bu qrup insanlar var. Pul qazanmaq ayıb deyil, heç bir vaxt ayıb olmayıb. Məhəmməd Peyğəmbər də buna ayıb deməyib, Quranda da ayıb sayılmayıb. İşləyib pul qazanır, evə bir tikə çörək aparırsa, bunun nəyi ayıbdır?

***- Yeri gəlmişkən, bildiyimizə görə, siz də lap uşaqlıqdan çalışmısınız, vaxtilə çörək zavodunda fəhlə işləmisiniz. Hətta barənizdə çəkilən filmdə də bundan bəhs edən səhnə var. Bəlkə özünüzdən nümunə çəkəsiniz...***

- Sizə maraqlıdırsa, danışım. İndi yoldaşım hərdən yarızarafatla söyləyəcəklərimi evdə xatırladır...Mənim 12 yaşım var idi, yay tətilində qonşu uşaqları ilə birgə tərəvəz yeşiyi mıxlayardım. O vaxt Lənkəranda pomidor qutularını hazırlayardıq, məhsulları Rusiyaya aparardılar. Mənimlə Hüseynbala (Mirələmov-E.P.) yeşik mıxlayardıq. Hüseynbala müəllimlə məhəllə uşağıyıq, bir sinifdə oxumuşuq. İndiki həyat yoldaşımın xalası biz işlədiyimiz həyətdə yaşayardı. Bu məktəbli qız Bakıdan xalasıgilə qonaq gələrdi. Bizim yeşik mıxladığımız yerdən keçəndə mənim gözüm elə onda olardı (gülür). Arıq, qıvrımsaç qız idi. Elə gözüm onda qalardı, diqqətsizlikdən çaşıb çəkici düz barmağıma necə zərblə vururdumsa, ağrıdan iniltimi belə gizlədə bilmirdim. Qız duruxub baxır və gülümsəyib keçirdi. Bir-iki dəfə belə oldu, axırı qız gəldi ki, "ay oğlan sən öldün axı..."(gülür).

***- Ondan sonra ailə qurmağa razılıq verdi?***

- Razılığı 22 yaşında verdi. Sözü nəyə gətirirəm? Biz belə həyat yolundan keçmişik də. Mən çörək zavodunda 70 kiloluq kisə daşıyanda 61 kilo çəkim var idi. Yük vaqonu boşaldardıq, orada 840 kisə olardı. Sonda heyim çəkiləndə kisənin altında qalırdım. O gün hörmətli Şeyximiz gəlmişdi, söhbət elədi ki, Lənkərandakı məscidi o vaxtlar Hadi müəllimə bərpa elətdirdim. O dövrdə məscidin adını tutmaq olmazdı, onu "kitab evi" kimi bərpa elədim. Niyə bərpa elədim? O məscid binası vaxtı ikən mənim çalışdığım çörək zavodu idi. 15 yaşımda mən ora fəhlə getmişdim. Sonra təzə zavod tikildi, ordan anbar kimi istifadə etdilər. Orda Ağasaleh adlı kişi var idi, qonşuyduq, məni at arabası ilə, işə evə aparıb-gətirərdi. Taleyin qismətinə bax. 32 yaşımda oldum Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri. Ağasaleh kişi mənim yanıma gəldi. Dedi şəhərin bütün Böyük Bazar camaatı yığılmışdı ki, indi Hadı müəllim bu vəzifəni tutub, vaxtı ikən sənin əlinin altında işləyən uşaq olub, get hamımızın sözünü de, bu məscidi bərpa eləsin. O vaxt İsa Məmmədov 1-ci katib idi, dedi mən bu işə qarışmıram, sən "xatalı" işlərlə məşğulsan. Dedim işiniz olmasın, bir yol tapacağam. Mədəniyyət Nazirliyində restavrasiya idarəsi var idi, çalışıb o qurumun şöbəsini Lənkəranda açdırdım. Birinci o vaxtlar icraiyyə komitəsi yerləşən Lənkəran Xan Sarayının damını bərpa etdirdim, mən orda otururdum. Sovet vaxtı onun damına günbəz qoymurdular ki, dinin simvoludur. Sonra məscidi plana saldırdım, onu bərpa etdirdim, həmçinin minarə bərpa olundu. Onu kitab evi kimi açdım. Sonra zaman dəyişdi. Bu dəqiqə həmin məscid fəaliyyət göstərir. Hər gedəndə camaat mənə dua-sana edir.





### "Kisə daşıdığım anbara məni 20 yaşımda müvəqqəti müdir qoydular"

Söhbət hardan-haraya gəldi. Demək istəyirəm ki, fəhlə işləmək ayıb olmamalıdır. Kəblə Yunusun nəvəsi - mənim babam çox varlı tacir olub - əməkdar müəllimə Bəylərova Firuzənin oğlu, atamın atası Məşədi Əlinin nəvəsi kisə daşıdı, bunu özünə və ailəsinə ayıb bilmədi. Təsəvvür elə, kisə daşıdığım anbara məni 20 yaşımda müvəqqəti müdir qoydular. Üç aylıq məzuniyyətə gedən anbardar da 86 yaşında kişiydi, Allahı tanıyan, Quranı bilən adam idi, anbarı mənə təhvil verəndə heç nə əskik çıxmadı, burada hər şey hesabatlardakı rəqəmlərdən xeyli artıq idi. Ordakı fəhlələrlə üç ay yedik-içdik, kef elədik. (gülür). Mən onlarla bir yerdə fəhlə işləmişdim, sonra anbardar oldum, təbii ki, yoldaşlıq edirdim, birgə yemək yeyirdik. Bütün bunların mahiyyətində zəhmət dayanır.

***-İndi sizə milyonçu demək olar?***

- 4 balam mənim milyardımdır, mənə milyarder deyin. 10 nəvəm var, hamısı savadlı uşaqlardır, Azərbaycan, rus dillərini təmiz bilirlər, ingilis dilində danışırlar. Nəvəm Hadi Rəcəbli də 16 yaşında orta məktəbi bitirdi, o da idmançıdır və əlaçıdır. Mənim milyardım onlardır. Siz tanıyan Hadi müəllim kasıb, əlsiz-ayaqsız adam deyil, bir tikə çörəyim, mənzilim, bağ evim var, bunlar normal adam üçün xarakterik məsələlərdir. Cavanlığımdan hökumət maşınım olub. Mənim uşaqlarımı heç görmüsünüz ki, şəhərdə özlərini pis aparsınlar? Yaxud eşitmisiniz? Məni bahalı kostyumda, həddini aşan geyimdə görmüsən? Yenə də söhbəti ona gətirirəm ki, halallıqla yaşamaq, əndazədə dolanmaq və geyinib qidalanmaq, zəhmətlə ucalmaq ayıb deyil.

Götürüb ağzına gələni yazırlar. Mənim qızlarımın, oğlanlarımın 40-50 yaşları var, nə istəyirsən məndən? Övladlarım hərəkət eləməsinlər? Savadlıdırlar, ağıllıdırlar, zirəkdirlər. İnan, kiçik oğluma təəccüb edirəm ki, bu qədər enerjini hardan tapır, ailəsi ona necə dözür? Gecə-gündüz çalışır. Dostlara da vaxt tapır, xeyir-şərə də. Belə uşaqlar böyütmüşük. Zəhmətlə... zəhmətkeş...

***- Yay tətilində harda dincələcəksiniz?***

- Mən həmişə Lənkəranda dincəlirəm. Çox razı da qalıram istirahətimdən. Dəniz də var, göl də, çay da, meşə də. Mən dünyanı gəzmişəm, görmüşəm. Bəlkə də yaşım belə tələb edir. İndi adam tərəvəzi sahədən, meyvəni ağacdan özü dərmək, südü inəyin döşündən sağandan sonra içmək istəyir...

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

## Azərbaycan XİN Ərbildə türk diplomatlarına hücumu pisləyib

**"İraqın Ərbil şəhərində törədilən silahlı hücum nəticəsində həyatını itirən türkiyəli həmkarlarımıza Allahdan rəhmət diləyir, yaxınlarına başsağlığı veririk. Baş vermiş hücumu isə kəskin şəkildə pisləyirik".**

Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin iyulun 18-də Ərbildə baş vermiş silahlı hücumla bağlı yaydığı bəyanatda vurğulanıb.

Qeyd edək ki, İraqın Ərbil şəhərində restorana silahlı hücum nəticəsində Türkiyə konsulluğunun 3 əməkdaşı ölüb.

## Səfirin qətlinə görə TRT-NİN 5 işçisi tutuldu

**Türkiyə Baş Prokurorluğu Rusiyanın Ankaradakı keçmiş səfiri Andrey Karlovun qətlə yetirilməsi görüntülərinin TRT-də yayımlanması ilə bağlı istintaq çərçivəsində əməliyyat keçirib.**



Yerli KİV xəbər verir ki, polis prokurorluğun təlimatı ilə FETÖ üzvləri olduğu iddia edilən 6 TRT işçisini nəzarətə götürüb.

Bildirilir ki, onlardan 5-i kanalın hazırkı , 1-i isə keçmiş əməkdaşıdır.

Azvision.az xatırladır ki, 62 yaşlı səfir Andrey Karlov dekabrın 19-da adının verildiyi Ankara Müasir Sənət Mərkəzində 22 yaşlı polis Mevlet Mert Altıntaş tərəfindən öldürülüb. Sui-qəsdçi isə polis özəl hərəkatı tətəfindən zərərsizləşdirilib.

## Əfqanıstan ordusunun generalı öldürüldü



**Əfqanıstanın Milli Ordusunun generalı radikal "Taliban" hərəkatının silahlıları tərəfindən öldürülüb.**

Bu barədə "Tolo news" telekanalı xəbər verib.

Müdafiə Nazirliyinə istinadən yayılan məlumata görə, general Əbdül Mübin Müdctəb Qəzni vilayətinin alayına komandanlıq edib. O, Qəzni və Qəndəhar vilayətləri arasındakı postu yoxlayarkən qətlə yetirilib.

Hücumda "Taliban" hərəkatının iki əsgəri iştirak edib. Onlardan biri öldürülüb, digəri isə yaralanıb.

## ABŞ Səudiyyə Ərəbistanına 500 hərbçi göndərməyə hazırlaşır

ABŞ Administrasiyası İranla aralarında gərginliyin artdığı bir vaxtda Səudiyyə Ərəbistanına xeyli sayda hərbçi göndərməyə hazırlaşır.

CNN xəbər verir ki, Pentaqondan verilən məlumata əsasən, 500 nəfər amerikalı hərbçi Ər-Riyadın şərqində Şahzadə Sultan hərbi hava bazasında yerləşdiriləcək. İndi bazadakı hava limanını və eniş zolağını təkmilləşdirmək, habelə "Patriot" raket sistemlərini quraşdırmaq üçün bazada bir qrup amerikalı hərbçi və yardımçı heyət çalışır.

Mənbələr administrasiyanın bu planından Konqresin əvvəlcədən xəbərdar edilmədiyini, rəsmi açıqlamanın gələn həftə gözlənildiyini bildirirlər.

Qeyd edək ki, ötən ay ABŞ Administrasiyası İran ətrafındakı vəziyyətlə əlaqədar olaraq Yaxın Şərqə 1000 hərbçi göndərəcəklərini bildirmişdi.

## Azərbaycan nefti 3,5% ucuzlaşdı

Azərbaycanın dünya bazarına çıxararaq satdığı "Azeri LT CIF" markalı xam neftin qiyməti 2,39 ABŞ dolları və yaxud 3,49% azalıb.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 66,17 dollar təşkil edib.

Xatırladaq ki, "Azeri LT CIF" neftinin minimal qiyməti 2001-ci ilin dekabrında (19,15 dollar), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 dollar) qeydə alınıb.

# Vaşinqton Türkiyəni F-35-lə "vurdu"- təfərrüat

## F-35 təyyarələrinin qiyməti 7-8 milyon dollar bahalaşacaq, Ankara isə alternativ variantlara baxa bilər



**ABŞ Müdafiə Nazirliyi Türkiyəyə F-35 döyüş təyyarələri proqramında iştirakını dayandırıb. Pentaqon bu qərarı Rusiyadan S-400 zenit-raket kompleksi alması ilə əsaslandırıb. Belə bir qərarın olması daha əvvəldən gözlənilsə də, məlum qərar Ankara və Brüsseldə narahatlıqla qarşılanıb.**

Ancaq eyni zamanda ABŞ Müdafiə Nazirliyinin Satınalma və Təmir İşləri üzrə rəsmisi Ellen Lord bildirib ki, bu qərar "geri döndürülməz" deyil, əgər Ankara S-400 mövzusunda mövqeyini dəyişdirərsə, yenidən proqrama qatılması müzakirə oluna bilər. Eyni zamanda o, hazırda ABŞ-da olan və F-35 təlimlərində iştirak edən Türkiyə hərbi pilotlarının geri göndərilmə mərhələsində olduğunu deyib.

Qeyd edək ki, Türkiyə F-35 layihəsinin üzvüdür. Bu səbəbdən də Ankaranın layihədən çıxarılması 9 milyardlıq ziyana səbəb ola bilər. Lakin Qərb mənbələri Trampın Yaponiya səfəri zamanı bu ölkəyə Türkiyənin alacağı sayda, yəni 100-ə yaxın F-35 satılması ilə bağlı müqavilə imzalanıb. Mütəxəssislər hesab edirlər ki, Türkiyənin proqramdan çıxmasından yarana biləcək zərərləri Yaponiyaya satışla aradan qaldırmaq mümkün olacaq. Ümumilikdə isə Türkiyənin proqramdan çıxması Vaşinqtona 500-600 milyon dollar dəyərində zərər vuracaq.

Türkiyə XİN isə yaydığı rəsmi açıqlamada qərarı "birtərəfli və müttəfiqlik ruhu ilə uyğun gəlməyən" və eləcə də "gerçəkliyə əsaslanmayan" sənəd adlandırıb. Eyni zamanda XİN bəyanatında qeyd olunur ki, Türkiyənin F-35 proqramından kənarda qoyulması ədalətsiz olmaqla yanaşı, S-400 sisteminin F-35-lərin fəaliyyətinə manea yaradacağı, texniki göstəricilərini ələ keçirəcəyi iddiaları da əsassızdır. Türkiyə tərəfi qeyd edir ki, Ankaranın NATO-nun da iştirakı ilə bu mübahisələri həll etmək üçün birgə komissiya yaradılması təklifi də cavabsız qalıb.

**Sitat:** "ABŞ Türkiyənin dostluğuna önəm verdiyini, sadəcə, sözdə deyil, fəaliyyətlər, xüsusən də İŞİD, PKK/PYD/YPG və FETÖ ilə mübarizədə göstərməlidir".

Türkiyə XİN ABŞ-ı strateji əlaqələrdə yaralara səbəb ola biləcək xətadan geri çəkilməyə çağırır.

NATO baş katibi Yens Stoltenberq Türkiyənin F-35 proqramından çıxarılmasının narahatlıq doğurduğunu deyib. Baş katib deyib ki, S-400-lər NATO-nun birgə hava hücumundan və raketdən müdafiə sistemlərinin bir parçası olmayacağını, ancaq Türkiyədə olan mövcud təyyarə və radar sistemlərinin NATO ilə inteqrasiya halında fəaliyyət göstərməyə davam edə biləcəyini deyib. **Sitat:** "Türkiyənin NATO-ya dəstəyi və NATO-nun Türkiyə ilə əməkdaşlığı F-35-lərdən daha dərin və əhatəlidir. S-400 məsələsini kiçiltmək istəmirəm, amma bir NATO müttəfiqi olaraq Türkiyə S-400-lərdən daha vacibdir. Türkiyə İŞİD-lə mübarizədə həlledici müttəfiqdir. Bundan başqa, Türkiyə Balkan respublikalarında, Kosovada və Əfqanıstanda bir sıra NATO əməliyyatlarına dəstək verir. Türkiyə NATO hava hücumundan müdafiə sisteminin bir parçası olaraq davam edəcək, amma bu vəziyyətdən narahatam, çünki artıq F-35 proqramında olmayacaq".

Ağ Evin yaydığı rəsmi açıqlamada isə Türkiyənin Rusiyadan S-400 hava hücumundan müdafiə sistemləri almasının onun F-35 proqramına daxil olmasını mümkünsüz etdiyi vurğulanıb.

**Sitat:** "Rusiya kəşfiyyatının F-35-lərin inkişaf etmiş imkanlarını öyrənmək üçün istifadə edəcəyi bir platforma ilə birlikdə fəaliyyət göstərə bilməz".

Eyni zamanda Vaşinqton Türkiyəyə "Patriot" təklif etdiyini, eləcə də 65 ildir etibarlı NATO müttəfiqi olan bir ölkənin S-400 alması NATO üzvlərinin Rusiya sistemlərindən uzaq dayanması üçün verdiyi sözə əməl etmədiyini qeyd edib. Lakin eyni zamanda Vaşinqton digər məsələlərdə əməkdaşlığın davam edəcəyini vurğulayıb.

Xatırladaq ki, bu həftənin əvvəlində prezident Tramp Türkiyənin Rusiyadan S-400-ləri almasına münasibət bildirib. ABŞ prezidenti deyib ki, S-400-lərə rəğmən Türkiyə ilə münasibətlər yaxşıdır. Eyni zamanda Tramp Türkiyəyə "Patriot" sistemlərinin satılmamasına görə əvvəlki kabineti ittiham edib, dolayısı ilə bu problemlərə görə Obama administrasiyasını günahlandırıb.

Türkiyə dünyanın ən məşhur silah istehsalçısı olan "Lockheed Martin" şirkətinin həyata keçirdiyi "Müştərək Hücum Proqramı" çərçivəsində 5-ci nəsil döyüş təyyarələri hesab olunan F-35 "Lightning II" layihəsinə 2002-ci ildə qoşulub. Ümumi məbləği 25 milyard olan anlaşmaya əsasən F-35 qırıcılarının bəzi ehtiyat hissələri Türkiyədə istehsal olunacaq və Türkiyə ilə F-35 təyyarələrinin istehsalçısı "Lockheed Martin" şirkəti arasında imzalanmış 9 milyard dollarlıq anlaşmaya əsasən, Türkiyə 100 ədəd, bəzi məlumatlarda 116 ədəd F-35 təyyarəsi alacaq. Layihə şirkətinin saytında qeyd olunan məlumata əsasən, Türkiyə şirkətləri F-35-in ehtiyat hissələrinin istehsalından 12 milyard dollar gəlir əldə edəcək. Bu layihədə Türkiyənin ASELSAN, HAVELSAN, ROKETSAN, AYESAŞ, Alp Havacılık, Türk Havacılık və Uzay Sanayii (TUSAŞ) kimi şirkətləri iştirak edir.

Ən müasir, 5-ci nəsil döyüş təyyarələri olan F-35-lər dünyada böyük maraqla qarşılanıb. Uzunluğu 15, 4 metr, qanadlarının eni 10,7 metr olan döyüş təyyarələri 134 ton ağırlığındadır. Bu təyyarələr birdəfəyə 2200 kilometr uça bilir. F-35 qısa məsafəli qalxma-enmə, şaquli qalxma-enmə, radara görünməzlik texnologiyası və bağlı hissələrdən silah sistemlərinin tətbiqi kimi xüsusiyyətlərə malikdir.

F-35 təyyarəsi 25 mm-lik GAU-22/A aviasiya topu, "havadan havaya", "havadan quruya" tipli raketlər, həmçinin ayrıca GBU-31JDAM, GBU32JDAM idarə olunan bombalarla təchiz edilib.

F-35-in mühərriki "Rolls-Roys" (Rolls-Royce) şirkətinin iştirakı ilə hazırlanıb. Nüvə silahı ilə təchiz edilə bilər, 1,3 min kilometr məsafədən ballistik raketlərin atılmasını fiksə etmək qabiliyyəti var. ABŞ-ın, S-400 alacağı təqdirdə, Türkiyəyə F-35 satışını dayandırması gözlənilsə də, indi faktiki olaraq Türkiyəyə qarşı sərt addım atıb. Türkiyənin buna qarşı hansı cavab addımları atacağı maraq doğurur. Türkiyənin müdafiə sənayesi naziri İsmayıl Dəmir F-35 proqramından çıxarılmasının Türkiyənin bir sıra hərbi-sənaye şirkətlərini zərərə sala biləcəyini deyib. Dəmir deyib ki, hazırda onlar bununla bağlı Vaşinqtonun rəsmi qərarını gözləyirlər, hazırda isə Türkiyə şirkətləri öhdəlikləri yerinə yetirməyə davam edir. Eyni zamanda o deyib ki, Vaşinqtonun son qərarında Türkiyənin F-35 proqramında iştirakının məhdudlaşdırılması qeyd olunub, tamamilə uzaqlaşdırılması deyil. Onun sözlərinə görə, Türkiyə proqramdan çıxacağı təqdirdə F-35-lərin istehsal qiymətləri hər təyyarə üçün 7-8 milyon dollar bahalaşa bilər. Eyni zamanda o, hazırda bir sıra alternativ variantlar üzərində işlədiklərini deyib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

# Xəzəri hasarlayanlara qarşı mübarizə sərtləşir

## Dənizi qanunsuz çəpərləyənlər ən azı 4 min manat cərimə oluna bilərlər...

**Xəzər dənizini hasarlayanlara qarşı mübarizə sərtləşdirilir. Lakin buna baxmayaraq, dənizi hasara alaraq kafelər açıb, istirahət mərkəzi salanların fəaliyyəti davam edir. Əvvəlcə qeyd edək ki, ötən aydan etibarən Bakı Şəhər İcra Hakimiyyəti dənizi qanunsuz çəpərləyən şəxslərə qarşı mübarizəyə başlayıb. Belə ki, BŞİH-in Ticarət və xidmət departamentindən bildirilib ki, məsələ ilə əlaqədar "Qaynar xətt" fəaliyyətə başlayıb. Vətəndaşlar çimərliklərə getdikdə girişin ödənişli olduğunu gördəndə 012 566-83-71 əlaqə nömrələrinə zəng etmələri xahiş olunur.**




Bundan əlavə, iyunun 27-də departament əməkdaşları Şıx çimərliyində 9 müxtəlif məkana baş çəkib, orada olan qapılar və şlaqbaumlar, habelə qiymət yazılan lövhələr götürülüb. Eyni zamanda sahibkarlara xəbərdarlıq edilib ki, çimərlik ərazilərinə giriş pulsuzdur, əhalidən yalnız xidmətə görə pul almaq olar.

Paralel olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən də Xəzəri qanunsuz olaraq çəpərləyənlərə, ətraf mühiti çirkləndirənlərə qarşı mübarizə aparılır. **Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova** bildirib ki, ötən həftə Novxanı, Türkan və Hövsan çimərlikləri ərazisində keçirilən reydlər zamanı "Neptun", "Balıqçı", "Alma", "Antalya", "Mirvari", "Qala","Riad Park" və "Caspian Beach" istirahət mərkəzlərində formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdılması faktlarına görə sözügedən obyektlərə cavabdeh şəxslər Rəhim Xəlilov, Pərvanə Eyyubova, Anar Quliyev, Fərhad Əsgərov, Azər Rzaquliyev, Şahin Babayev, Anar Allahyarov və İsmayıl Hüseynov barəsində akt, protokol tərtib olunub və hər biri vəzifəli şəxs qismində 4000 manat məbləğində cərimə edilib.

"Xəzər dənizinin şimal sahil zolağında keçirilən reydlər zamanı isə "Elay", "Malibu", "Jalə", "Yalama-Xəzər Turist Bazası" və "Lokomotiv" istirahət mərkəzlərində formalaşan tullantı sularının təmizlənmədən dənizə axıdılması faktlarına görə akt və protokollar tərtib olunub. Obyekt sahibləri Maya Vəliyeva, Rüfət Nəsizadə, Amil Məmmədov, Mahir Şirəliyev vəzifəli şəxs qismində 4000 manat məbləğində cərimə edilib, "Lokomotiv" istirahət mərkəzinin isə hüquqi şəxs qismində cərimə olunması üçün tərtib olunmuş sənədlər rayon məhkəməsinə göndərilib.

Bundan əlavə, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən də Xəzər dənizinin 20-50 metrlik sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı nəzarət daha da gücləndirilir. Bununla əlaqədar olaraq Xəzər dənizinin Bakı şəhərinin Qaradağ, Xəzər, Suraxanı, Binəqədi rayonları, eləcə də Sumqayıt şəhərinin ərazisində olan zonalarında monitorinq qrupları yaradılıb.

Komitədən "Yeni Müsavat"a verilən məlumata görə, aparılan monitorinq zamanı Xəzər dənizinin sahilboyu mühafizə zolağı torpaqlarından qanunsuz istifadə halları aşkarlanır. Xəzər dənizinin mühafizə zolağına aid ərazilərini qeyri-qanuni istifadə edən torpaq mülkiyyətçiləri barədə İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən inzibati protokollar tərtib edilir.

Hazırkı dövrədək İnzibati Xətalar Məcəlləsinə əsasən təqsirkar şəxslər barədə 80 halla bağlı protokol tətbiq edilib, torpaq sahəsinin zəbt olunması ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən 76 hal barəsində Daxili İşlər Nazirliyinə müraciətlər göndərilib, 39 işlə bağlı məhkəmələrdə iddia qaldırılıb.

Qanunla 20-50 metr zolaqda hər hansı tikintinin aparılması üçün xüsusi razılıq olmalıdır. Dəniz sahilinin hasarlama və ya digər üsullarla bağlanılması yolverilməzdir. Hasarlama işləri yalnız qəfəsəli olmaqla uzunluğu 200 metrdən artıq olmamalıdır və hər 200 metrdən sonra dəniz sahilinə 6 metr enində gediş-gəliş yolu saxlanılmalıdır.

Qeyd edək ki, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağına aid olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə fiziki, vəzifəli və hüquqi şəxslər müvafiq olaraq 4 min manat, 8 min manat və 40 min manat cərimələnir. Həmçinin Cinayət Məcəlləsində Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə vəzifəli şəxsləri 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulub.

Bu hallar torpaq qanunvericiliyinin ciddi şəkildə pozulmasına səbəb olmaqla yanaşı, vətəndaşların Xəzər sahilində istirahət hüququnu da məhdudlaşdırır, bəzən tamamilə mümkünsüz edir. Eyni zamanda sahilboyu ərazilərin qanunsuz olaraq hasarlanması həmin yerin panoramik görünüşünü pozur. Bu isə turizm baxımından mənfi fəsadlara gətirib çıxarır.

Hər üç qurum tərəfindən məlumat verilib ki, Xəzər dənizinin sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı monitorinqlər davam etdiriləcək.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Göyçə gölü quruyur



**"Yüksək dağlıq ərazidə yerləşən Göyçə (Sevan) gölü acınacaqlı vəziyyətdədir".**

Bu barədə Ermənistan Milli Elmlər Akademiyası yanında su hövzəsinin qorunması üzrə elmi-ekspert komissiyasının sədri Yuri Cavadyan "Göyçə gölünün problemləri və onların həll yolları" mövzusunda keçirilən işgüzar müzakirələr zamanı bildirib.

"Göl ekoloji cəhətdən acınacaqlı vəziyyətdədir. Onu xilas etmək üçün çox iş görülməlidir. Bu günə qədər görülən işlər gölün itirilməsi təhlükəsinin aradan qaldırıldığını söyləməyə imkan vermir", - deyə Y.Cavadyan bildirib.

Ekspertlərin fikrincə, su hövzəsinin ekosisteminin pozulmasına səbəb olan bir sıra problemlər var: gölə yaxınlıqdakı ictimai iaşə obyektlərindən çox miqdarda tullantı daxil olur, məişət kimyası axıdılır, buxarlanma artsa da, gölə lazımi miqdarda çay suyu daxil olmur və s.

Yerli ekoloqlar həmçinin göldə balıq və xərçənglərin ölümünə səbəb olacaq bataqlıqlaşma prosesinin başladığını qeyd edirlər. Bunun nəticəsində hövzə istirahət və üzmək üçün cəlbediciliyini, Ermənistan isə əsas turistik məkanlarından birini itirəcək /report/.

# Boşanma statistikası, çamadan ovqatı



**Samir SARI**

**Bu da yeni trenddir: ildə ən azı dörd dəfə ölkədəki boşanmaların sayına dair statistik məlumatlar yayılır və saytlar, qəzetlər də götürüb bu məlumatları dərc edirlər. Dərcdən sonra şərh edirlər. Şərhdən sonra mövzu kollektivlərdə müzakirə olunur.**

Bu cür məlumatlar çox adamı kədərləndirir, əndişələndirir. Bunlar ərindən ayrılan xanımların ata-anaları, qohum-qardaşları, varsa, övladlarıdır. Onlar başa düşürlər ki, yeni bir məsuliyyət ocağı yaranır, "qız yükü-duz yükü" deyərlər ha, bax, o "duz yükü" bir az da ağırlaşır.

Amma bu statistik məlumatları oxuyub şadlananlar da var. Bunlar da manyak qafalı gədələrdir, düşünürlər ki, indən belə sosial şəbəkədə "boşanmış gəlin tutmaq" daha asan olacaq. Sanki ərindən ayrılan qadınlar yemdir, bunlar da ac canavar.

Təcrübə göstərir ki, "ac canavarlar"ın doxsan faizi ac-acına da qalır, əllərinə bir şey keçmir, yalandan orda-burda, tay-tuşlarının yanında "sən öl, bir gəlin tutmuşam, 5 ayın gəlini olub" deyə üst-başlarına yaxmaqlarına baxmayın.

Yeni camaat namus-şərəfini çölə atmayıb. Təbii ki, boşanan qadınların içində yoldan çıxanlar və yola çıxanlar da olur, amma beləléri çox azdır və buna dair hər hansı bir statistik göstərici yoxdur.

Bu xüsusda son xəbər belədir ki, bu ilin 5 ayı ərzində 7 mindən çox ailə dağılıb. Əgər bu templə davam eləsə, oktyabra qədər daha 7 min cütlük ayrılacaq, ilin son iki ayı da 3 min ər-arvad birgə yaşama son versə, babat rəqəm alınır - 17 min.

Bu, il ərzində qurulan ailələrin üçdə biri deməkdir. Yəni hər qurulan üç ailədən biri hansısa zaman mərhələsində dağılır.

Bəzi məlumatlara görə, son illərdə qurulan ailələrin dayanıqlığı daha azdır. Köhnə sovet binaları "novostroyka"lara nisbətən daha dözümlü, dayanıqlı (bir az badar-bucaq və dələngəvaz olsalar da) olduqları kimi, köhnə sovet ailələri və birgəyaşayışın 10 ilini geridə qoymuş ailələr də, rusca desək, "novobraçnı"larla müqayisədə daha möhkəmdir. İnanmayan gedib yoxlaya bilər.

Bu, niyə belədir - uzun və maraqsız söhbətdir. Gərək psixoloji aspektlərdən girib iqtisadi konspektlərdən çıxasan.

El ağzıyla desək, günah seriallardadır. Guya qadınlar o seriallara baxır, başı pozulur, gedib ərindən boşanır.

Bir geniş yayılmış qənaət də var ki, boşanmaların artımının səbəbi sosial şəbəkələrdir. Guya ki, cütlüklər macəra həvəsinə düşür, sosial şəbəkələrdə tanışlıqlar yaradırlar, ya üstü açılır, boşanırlar, ya da üstü açılmır, bir gün qoşulub qaçırlar.

Əlbəttə, az-az bu amillərin də o mənhus statistikanın kökəlməsinə təsiri var, amma altıncı hiss deyir ki, əsas bunlar deyil.

Nə qədər ora-bura fırlatsan da, boşanmalarda əsas səbəbin dolanışıq olduğu qənaəti əbədidir, sarsılmazdır. Hərçənd şəhərin mərkəzində penthausu, Xəzər sahilində bağı və hərəyə bir lüks maşını olan cütlüklər də ayrılır. Əslində bu da dolanışıq üzündəndir. Bir yerdə dolana bilmirlər.

Ailələrin dağılmasının 50 faizinin günahı kişilərdədir. İşləmirlər, içirlər, gəzirlər, ailə-uşağa baxmırlar və sair və ilaxır.

Günahın yerdə qalan 50 faizi də qadınlardadır. İşləmirlər, seriala baxır, özlərinə baxmırlar, elə hey deyinirlər, ərləindən çox şey tələb edirlər və sair və ilaxır.

Bizdə qaydadır, ayrılandan sonra bütün kişilər (kiçik istisnalar var) alkoqolik, narkoman və şorgöz çıxırlar.

Qadınların da məşhur damğası var, amma bunu daha çox xoşqeyrət ərlər dilə gətirir, çox adam "xasiyyətimiz tutmadı" deyib, məsələni bağlayır.

Bir bizdə deyil, dünyanın hər tərəfində boşanmaların sayı artıb. Məsələn, hətta dindar BƏƏ-də belə 30 faiz boşanma var.

Boşanma yalnız o ölkələrdə azdır ki, orada, ümumiyyətlə, evlənmirlər. Daha dəqiqi, vətəndaş nikahında yaşayırlar, bir-birinə acıqları tutanda da diyircəkli çamadanları qablayıb aralaşırlar. Bu isə boşanma statistikasına təsir etmir.

Oxumuş adamlar isə deyir ki, bir yerdə yaşaya bilməyəndən sonra ən yaxşısı ayrılmaqdır.

Amma bizim coğrafiyada ayrıldığı qadını qısqanan və acığı tutanda vurub öldürənlərin də ayrıca statistikası var.



# Yaşayış yerində qeydiyyat niyə vacibdir

**Zamin HACI**
zaminhaci@gmail.com

**"Vay səni, bu təkərə bax! - kəndlilərdən biri o birinə dedi, - Görən bu təkərlə Moskvaya qədər getmək olar?"**

*(Qoqol, "Ölü canlar")*

****

**Bizim görkəmli xalq şairlərimizdən biri vaxtilə "Yeni Müsavat"a intervüsündə demişdi ki, xalqın fikrini soruşmadan kiməsə xalq şairi, xalq yazıçısı adı verilən ölkədə yenə xalqın rəyi soruşulmadan "xalq düşməni" adı verilməsi təhlükəsi vardır. Müdrik adamdır. Belə uzaqgörən poeziya örnəklərini çox yaradıbdır. Misal üçün, çinarın budağının qırılıb camaatı öldürə biləcəyini vaxtilə başı kəsik kötüyə həsr elədiyi ekoloji maarifləndirici əsərində haqlı olaraq göstərmişdi. Əlaqədar orqanlar nəticə çıxartmadılar.**

Ancaq bu gün şairin yaradıcılığını tədqiq eləmək fikrimiz yoxdur, həm də, maşallah, verilən qiymət göstərir ki, bunu bizdən daha yaxşı, daha dəqiq edən əlaqədar orqanlar vardır, daim fəaliyyətdədirlər. Əhsən deyirik. Üstəlik, adamları yemək olmaz, yeyərsən qarnın ağrıyar. Bizim ölkədə bu mənada Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti də qənaətbəxşdir. Ümumiyyətlə, hamısının fəaliyyəti qənaətbəxşdir. Şairin yadıma düşməsinə səbəb isə onun bir şeirini xatırlamağım idi. Hələ sovet vaxtı yazdığı şeirdə şair havanın yavaş-yavaş işıqlaşmasını, Günəşin tədricən, regionların inkişaf planına uyğun və dinamik formada ortalığa çıxmasını tərənnüm eləmişdi. Əsərin qısa məzmunu belə idi ki, nə yaxşı Günəş gecə saat 3-də çıxmır, bu zaman kimin evindən kimin çıxması, hansısa əlləm-qəlləm hərəkətlər, əxlaqa, milli mentalitetimizə zidd əhvalatlar görünərdi, bütün dünyada, xüsusilə YUNESKO yanında biabır olardıq. Əlbəttə, şair YUNESKO haqda orda yazmamışdı, o dərəcədə uzaqgörən deyilmiş. Ancaq biz onu buna görə qınamırıq. Bizim ağlımıza heç Günəşi gecə saat 3-də işə çıxartmaq gəlməyibdir. Bunun özü novator hadisədir.

Uzun sözün qısası, şairin toxunduğu "kim kimin evindən çıxır" məsələsi bu dəqiqə çox aktualdır. Dövlət təzə qərar veribdir, camaat hara getsə orda dərhal qeydiyyata düşməlidir, özünün həmin nöqtəyə gəldiyini əlaqədar orqanlara bildirməlidir. Doğrusu, bunun hüquqi mexanizmi necə olacaqdır, cibində vəsiqə gəzdirməyənləri elektron formada yoxlayıb cərimə edəcəklərmi, "prapiska" yerini yalan deyəni dama basacaqlarmı - bundan xəbərim yoxdur. Bütün hallarda çətin olacaqdır, çünki respublika camaatının bəlkə yarıdan çoxu bu dəqiqə qeydiyyatda olduğu yerdə yaşamır. Hərə bir dərd-sər üzündən çöllərə, küçələrə düşübdür. Pis mənada yox: misal üçün, biri idman yarışı üçün kənddən şəhərə gəlib, başqası Bakıdan rayona pambıq əkməyə gedib, üçüncüsü İrana böyrəyinin ixracına yollanıb və sairə. Hələ çoxlu qaçqın-köçkünü demirəm. Üstəlik, mən biləni adamın yaşayış yerini sərbəst seçmək hüququ bizim qanunlar və imzaladığımız beynəlxalq konvensiyalarda yazılıbdır. Bəs indi həmin qanunlar necə olacaq? Həmçinin Məmmədhəsən kişinin və ya onun arvadı Zeynəbin həqiqətən Danabaş kəndində, ya Dəymədağıldı obasında yaşadığını, yaxud Tolikin A məntəqəsindən çıxıb B məntəqəsinə getdiyini dəqiq bilmək ayın-ilin bu günündə dövlət orqanlarının nəyinə lazımdır? Axı biz məcburi "prapiska" aparan, hətta bəzi sərhəd bölgələrinə və qapalı şəhərlərə icazə kağızı ilə adam buraxan, bir növ, öz vətəndaşına viza tətbiq edən gülməli Sovet hökumətini çoxdan aşırmışıq (Allah Qarbaçovun evini yıxsın). Təsəvvür edin, o vaxtlar camaat Bakiya, Moskvaya qeydiyyata düşmək üçün yalandan yaşlı qarılarla evlənirdilər. Qarıya pul ödəməklə, təbii ki. Əslən bakılı, İsraildə yaşayan yazıçı Eduard Topolun bir kitabında SSRİ vaxtı Moskvada yaşamış bir yəhudinin başına gələn tragikomik olay həmin qeydiyyat söhbətini yaxşı təsvir edirdi. Deyir yəhudi hansısa qarı ilə razılaşıb "evlənir", ancaq ərazinin uçaskovısına rüşvət vermək istəmir. Uçaskovı söhbəti bildiyi üçün hər gün axşam saat 10-da və səhər saatlarında qarının evinə gəlib yəhudinin orda qalıb-qalmadığını yoxlayırmış. O da məcburən hər səhər və axşam qarının evində bir-iki saat qalırmış. Yəhudi axırda bezib SSRİ-dən mühacirət edir.

Ancaq, əlbəttə, zəhmətkeşləri özbaşına buraxmaq da olmaz. Dövlət onların yerini yaxşı mənada bilmək istəyir. Misal üçün, elə şairə xalq şairi adı vermək üçün. Bəlkə şair gedib meşədə yaşayır, ona adı necə verəcəksən? Yaxud elə jurnalist var türməyə girib, lakin dövlətə bu haqda məlumat vermir. Bəs bunu 22 iyulda nə cür təbrik eləyək? Hamısı vacib işlərdir. Pensiya var, xaricdə müalicə var, ipoteka var... Üstəlik, yaxşı adam heç vaxt gizlənməz.

Sonda bir sual da məni düşündürür: qeydiyyat yerində yaşamayan vicdansızları əlaqədar orqanlara xəbər verməyin nəsə mükafatı-zadı varmı? Xeyli adam tanıyıram...




# Bölgədə Bakının mövqeyi güclənir- ABŞ-ın şok planı

## Vaşinqton Azərbaycana yardımı artırıb, Ermənistana isə azaldıb - ilginc statistika; erməni rəsmilərinin Amerikaya silsilə səfərlərinin motivi - Paşinyan Vaşinqtona "siyasi desantlar"ı niyə göndərib? **Politoloq:** "Azərbaycan Qərbin regionda əsas dayağına çevrilir..."

**Keçən ay SOCAR Cənub Qaz Dəhlizi (CQD) ilə bağlı bəyanat yaymışdı. Bəyanatda deyilirdi ki, CQD-nin əsas seqmenti olan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) 1 iyul 2019-cu il tarixindən etibarən Azərbaycan qazının Avropaya nəqli üçün hazır vəziyyətə gətirilib.**

"Dəhlizin son seqmenti olan TAP boru kəməri layihəsi də tamamlandıqdan sonra Azərbaycanın "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə Avropaya nəql ediləcək, ölkəmizin gəlirlərini artıraraq, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. TANAP eyni zamanda tarixə Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz boru xətti kimi daxil olub", - deyə rəsmi açıqlamada bildirilirdi.

Bu məlumat, əlbəttə ki, ən çox işğalçı Ermənistanda, qismən də onun müttəfiqi Rusiyada narahatlıq yaratdı. İşğalçı ölkənin nədən təlaş keçirməsinin motivi bəlli - Azərbaycanın Avropa üçün artan önəmi, iqtisadi bağların siyasi bağları möhkəmlətməsi. Rusiya isə Avropanın Azərbaycan qazı hesabına ondan energetik asılılığının azalmasına görə əndişəyə düşə bilərdi...

*****

ABŞ-dakı erməni lobbisi üçün əlçatmaz olan prezident Donald Trampın azərbaycanlı həmkarı İlham Əliyevə ünvanladığı son məktublarda da Azərbaycanın Qərb, Avropa üçün önəmi dönə-dönə vurğulanır. Həmçinin Rusiya və NATO (ABŞ) generallarının görüş yeri kimi daim Bakını seçməsi də Azərbaycana artan inam-etimadla yanaşı, onun bölgədəki yeri, önəmi və avtoriteti ilə birbaşa bağlıdır.

İşğalçı Ermənistanı narahat edən də Azərbaycanın Qərb üçün get-gedə artan dəyəri və önəmidir. Bu isə nə vaxtsa Dağlıq Qarabağ məsələsinin istər dinc, istərsə də hərbi yolla ədalətli çözümü yönündə Bakıya unikal fürsətlər aça bilər. Söz düşmüşkən, ötən həftə Bakıda səfərdə olan Avropa İttifaqı Nazirlər Şurasının prezidenti Donald Tusk da ölkəmizin Avropa Birliyi üçün önəmini dilə gətirib və təşkilat adından Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edib. Təxminən eyni mövqeyi o, İrəvanda ortaya qoyub.

Şübhə yox ki, hazırda Ermənistandan birdən-birə üç (!) rəsmi nümayəndə heyətin - baş nazirin müavini Tiqran Avinyan, xarici işlər naziri Zoqrab Mnatsakanyan və parlamentin spikeri Ararat Mirzoyanın eyni vaxtda, lakin ayrı-ayrılıqda ABŞ-da səfərdə olması ilk növbədə bölgədə geosiyasi tarazlığın Azərbaycanın xeyrinə dəyişməkdə olması ilə bağlıdır. Politoloq Elxan Şahinoğlu haqlı olaraq bunu "Paşinyanın Amerikaya siyasi desant göndərməsi" kimi qiymətləndirib. Bu fonda srağagün Ermənistanın müdafiə naziri David Tonoyanın İrəvanda ABŞ səfiri ilə görüşü də diqqət çəkməyə bilməz.

*****

Az öncə isə ABŞ Konqresinin Nümayəndələr Palatası ermənipərəst konqresmenlərin təşəbbüsü ilə Xankəndi aeroportu ilə bağlı Azərbaycan əleyhinə qanun layihəsini qəbul edib. Sənədin qüvvəyə minməsi üçün onu Senat və prezident də təsqidləməlidir. Qanun layihəsi Azərbaycana mülki hava obyektlərini (Xankəndinə qanunsuz hava uçuşları nəzərdə tutulur) vuran silah və sistemlərin satışını qadağan edir.

Ancaq bu, məsələnin zahiri tərəfidir, nəticədir. Siyasi müşahidəçilər ən əvvəl Azərbaycanın Qərb üçün artmaqda olan önəminə və bu önəmi zəiflətmək üçün ermənilərin artan həşirinə xüsusi diqqət yönəldirlər.

Məsələn, **politoloq Erkin Qədirli** erməni lobbisinin hər fürsətdə bizə qarşı bir qanun və ya qərar layihələrini qəbul etdirmək marağının, demokratların da bu cür layihələrə səs vermək həvəsini xatırladaraq deyir: "Lakin işin maraqlı tərəfi bu deyil. Konqresin birdən-birə belə layihəni qəbul etməsi çox maraqlı oldu. ABŞ bizə onsuz da silah satmırdı. Sən demə, ortada bizim xeyrimizə olan və erməniləri, o cümlədən Rusiya və İranı narahat edən fakt varmış".

Bəs söhbət hansı faktdan gedir? Ekspert bu xüsusda fikrini davam etdirərək maraqlı bir məqamın üzərinə gəlib: "Vaşinqtondakı Beynəlxalq Siyasət Mərkəzinə (Center for İnternational Policy) bağlı olan və ABŞ-ın təhlükəsizlik xərclərini araşdıran "Security Assistance Monitor" proqramının yaydığı məlumata görə, prezident Tramp 2018-2019 maliyyə ili üçün Azərbaycana 100 milyon dollardan bir qədər artıq pul ayırıb. Müqayisə üçün, 2016-2017 maliyyə ili üçün ayrılmış pulun məbləği cəmi 3 milyon olub. Bir ilin içində 97 milyon artımın bir izahı olmalıdır. Ayrılmış 100 milyon dolların təyinatına baxanda çox şey aydın olur. Bu pul Azərbaycanın cənub sərhədinin gücləndirilməsinə yönəlib. Oraya tikinti qurğuları, elektron cihazlar, rabitə və nəqliyyat vasitələri, izləmə texnologiyaları və s. daxildir. Bir qədər məbləğ də Xəzərdə təhlükəsizliyə yönəlib".

Politoloq ABŞ prezidentinin bu qərarının arxasında digər məqamların olduğunu bildirib: "Məsələn, Azərbaycanın Ermənistanla sərhəddən Müdafiə Nazirliyinə aid hissələri götürüb yerinə sərhəd qoşunlarına aid hissələrini yerləşdirməyin konteksti aydın oldu. ABŞ-ın cənub sərhədlərimizin gücləndirilməsinə ayırdığı pulun hesabına öz büdcəmizdən başqa sərhədlərimizi gücləndirmək imkanımız yarandı. Üstəlik, Ermənistanla sərhəddən götürülmüş MN hissələri indi birbaşa Qarabağa yönəldilə bilər. Daha sonra Gürcüstanla sərhədimizdə Rusiyanın təxribatı indi daha aydın görünür. Rusiya gücümüzü Ermənistandan yayındırmaq, Gürcüstanla bizim aramızda əlavə münaqişə yaratmaq istəyir. Bu, şübhəsiz ki, İranın da xeyrinə olardı".

Politoloq hesab edir ki, Qərbin bölgədə əsas dayağı Azərbaycandır: "Ermənistana qarşı gücümüzü çoxdan yığmışıq, fürsət yaranan kimi vuracağıq. Bunları bir güman kimi yazırdım, indi isə ortada faktlar var. Yeri gəlmişkən, Tramp Ermənistana təhlükəsizlik xərcləri üçün cəmi 2 milyon dollar ayırıb. Ermənilər də buna görə çox narahat olublar. Ehtimal var ki, Tramp bunu Ermənistanı cəzalandırmaq üçün, ermənilərin Suriyada ruslara yardım üçün əsgər göndərdiyinə görə edib".

*****

Əslində ABŞ "demokratik inqilab"ın lideri kimi Paşinyana inamını artıq itirib, ondan xeyli dərəcədə məyusdur. Nikolun Ermənistanı Rusiya cazibəsindən uzaqlaşdırıb, tutaq ki, Türkiyə və Azərbaycana yaxınlaşdıracağına, Moskvadan asılılığı zəiflətmək üçün Bakı və Ankara ilə dil tapacağına ümidini itirib. Rusiya orbitində qalmağı üstün tutan Paşinyanın Amerikaya yolladığı "emissarlar", çətin ki, bu reallığı dəyişə bilsin. Demək, Bakıya Qərbin "stavkası" da artacaq ki, azalmayacaq...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

# Ermənistan region üçün yeni "bomba" hazırlayır-AES tikintisi

## İkinci AES-in tikintisinin qarşısı necə alınmalı?

**Rəsmi İrəvan Ermənistanda yeni Atom Elektrik Stansiyasının (AES) tikintisində Rusiyanın mümkün iştirakı ilə əlaqədar Moskva ilə danışıqlar aparır. RİA Novosti xəbər verir ki, bunu Ermənistan baş nazirinin müavini Tiqran Avinyan deyib. O bildirib ki, Ermənistan atom enerjisindən imtina etmək istəmir. T.Avinyanın sözlərinə görə, Ermənistanda Metsamor AES bağlandıqdan sonra yenisinin tikintisi imkanları nəzərdən keçiriləcək: "Rusiyalı tərəfdaşlarla bu mövzunu müzakirə etməyə hazırıq. Artıq danışıqlar aparılır".**



Qeyd edək ki, Metsamor AES hazırda region üçün ciddi təhlükə mənbəyidir.

Bu ilin martında isə Ermənistan hökuməti bəyan etmişdi ki, onların stansiyanı bağlamaq kimi öhdəlikləri yoxdur, onun gücünü əvəzləyəcək mənbələr tapmağa ehtiyac var. Ermənistanda ildə 600 meqavat enerji istehsal edən yeni atom enerji bloku inşa ediləcək. Bu, ölkədə istehsal edilən enerjinin həcmini saxlamağa imkan verəcək.

Metsamor AES elektrik stansiyası artıq uzun müddətdir ki, mübahisə mövzusuna çevrilib. Bəzi beynəlxalq strukturlar, o cümlədən də Avropa İttifaqı stansiyanın bağlanmasında və ya modernləşdirilməsində israr edir. Ermənistanla Avropa İttifaqı arasında hərtərəfli və geniş tərəfdaşlıq haqda Saziş müzakirələrin fəallaşmasına səbəb olub.

Enerji və nüvə təhlükəsizliyi ilə bağlı əməkdaşlıq haqda bölməyə əsasən, Ermənistan tərəfi AES-i bağlamaq və onu yeni güclərlə əvəz etmək öhdəliyi götürüb. Amma ölkə hakimiyyəti artıq bəyan edib ki, istismar müddəti uzadılacaq. Hazırda stansiyanın təhlükəsiz istismarını uzadacaq işlər həyata keçirilir. Hələlik aydın deyil ki, bu müddət nə qədər uzadılacaq.

İndi də üstəlik yeni AES-in inşası planlaşdırılır.

Ermənistanın baş naziri Nikol Paşinyan bir neçə ay öncə bəyan edib ki, atom elektrik stansiyasının bağlanması məsələsi gündəlikdə yoxdur. Aİ ilə Saziş AES-in bağlanmasını nəzərdə tutmur. Metsamor atom elektrik stansiyası iyirmi ildən çoxdur ki, respublikanın enerji təhlükəsizliyi sistemində həlledici həlqə olaraq qalır. AES Ermənistanda istehsal olunan elektrik enerjisinin 40 faizinə qədərini təmin edir. Strateji istiqamət hesab olunur. Obyekt istismara 1977-ci ildə verilib. 1988-ci ildə ölkənin şimalında baş verən dağıdıcı zəlzələdən sonra SSRİ Nazirlər Kabineti və Ermənistan SSR Nazirlər Kabineti AES-in fəaliyyətini dayandırmaq qərarı verib. Bu, təkanların təkrarlanması ehtimalı ilə bağlı olub.

Amma beş ildən sonra, 1993-cü ildə Ermənistanın hakimiyyəti stansiyanın ikinci enerji blokunu təkrar işə salıb. Atom energetikası Ermənistanın ümumi enerji sistemində hələ də mühüm yer tutur və strateji istiqamət hesab olunur. Görünür, elə buna görədir ki, Ermənistan ikinci AES-i tikməyə hazırlaşır.

**Bu mövzuda "Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli** öncə bildirdi ki, MDB məkanında mövcud olan və ya tikilməkdə olan AES-lərin hamısı Rusiya tərəfindən inşa edilir. Çünki bu tip elektrik stansiyalarındakı istifadə edilən bütün mexanizmlər, xüsusilə də reaktorlar yalnız Rusiyada istehsalı olunur: "Doğrudur, reaktorlar istehsal eləyən digər ölkələr də var. Amma məsələ burasındadır ki, Rusiyada istehsalı edilən reaktorlar üçüncü nəsil reaktorlar hesab olunur. Bunların çertyojları və inşaatı 1960-cı illərdən başlayıb, 1970-ci illərdən praktiki olaraq istismarı həyata keçirilir. Məsələn, bu gün də Çernobıldа qəza törədən və oranı ölüm meydançasına çevirən reaktorlar hələ də Rusiyadakı 22-dən artıq AES-də istifadə edilir. Çernobıl reaktorlarına bənzər reaktorlar Ermənistandakı Metsamor AES-ə qoyulub. O da kifayət qədər təhlükəli və bütün resurslarını tükətmiş istifadəyə yararsız AES-dir. Ermənistanla ruslar arasında razılaşma əldə edilib, AES-i tikəcəklər. Belə bir məlumat da yayılıb ki, buraya qoyulacaq reaktorlar dördüncü nəsil reaktorlar tipindən olacaq. Guya bu reaktorlar təhlükəsizdir, həcm etibarilə daha kiçikdir və dünyada olan reaktorlara standart etibarilə uyğun gəlir. Amma bunların hamısı praktikada təsdiq edilməmiş məlumatlardır. Rusiya AES-lər üçün istehsal edilən reaktorların dördüncü nəslinin istehsalına girişsə də, hələ onun tam istehsalını həyata keçirə bilmir. Dünyada Fransanın, Almaniyanın, ABŞ-ın istehsal etdiyi reaktorlar isə beşinci nəsildirlər. Yəni ən müasir reaktorlardır. Onlardan fərqli olaraq rus AES-lər həm də çox böyük ərazini tutur".

Politoloq qeyd etdi ki, Azərbaycan və digər bölgə dövlətləri Ermənistanın ikinci AES-ə sahib olmasının təhlükəli olduğu barədə beynəlxalq təşkilatlara müraciət etməlidir: "Şübhəsiz, Rusiya iddia edəcək ki, Ermənistanda qurulacaq AES-dəki reaktorlar dördüncü nəsildir, təhlükəsizdir, bölgə üçün heç bir təhlükə vəd etmir. Ermənistan bundan qat-qat yüksək səslə deyəcək ki, yeni tikilən AES tamamilə yeni tiplidir və təhlükəsizdir. Amma hətta ən təhlükəsiz beşinci nəsil reaktorlarla təchiz edilmiş AES-lərin belə ətrafında ən azı 30-50 km. məsafədə radiasiya fonu yaranır. Ona görə də həmin AES-lər əhalinin məskunlaşmadığı, əkin-biçin olmayan sahələrdə tikilir. Bu AES-lər əhalinin yaşadığı sahədən ən azı 100-150 km. uzaqda olmalıdır. Ermənistanda isə belə bir ərazi, demək olar ki, yox dərəcəsindədir. Metsamor AES-in özünün yaşayış məntəqəsindən uzaqlığı 25-30 kilometrdir və bu stansiya həmişə qəza şəraitində işləyir. Bu stansiya Türkiyə sərhədlərindən cəmi 50 kilometr uzaqlıqdadır. Yeni AES-in Metsamorda tikiləcəyi ehtimalı böyükdür. Çernobıl faciəsi təcrübəsini nəzərə alsaq demək lazım gəlir ki, Metsamorda bir qəza baş versə, küləyin əsmə istiqamətindən asılı olaraq, təxminən 500-600 kilometrə qədər məsafəni radiasiya ilə zəhərləyəcək.

Bu nöqteyi-nəzərdən Ermənistanda ikinci AES-in tikilməsi çox riskli və bölgə üçün təhlükəlidir. Türkiyə, İran, Gürcüstan, Azərbaycan üçün bu, ciddi təhlükədir. Ona görə də, Azərbaycan da daxil, bu dövlətlər MAQATE-yə-Beynəlxalq Atom Enerjisindən İstifadə Təşkilatına müraciət etməlidirlər. Birincisi, 20-ildən artıqdır fəaliyyət göstərən və çox böyük təhlükə saçan Metsamor AES-in bağlanmasına nail olunmalıdır. Azərbaycan bununla bağlı dəfələrlə müraciət edib. Ermənistanda ikinci AES-in tikilməsinin təhlükəli olduğu sübuta yetirilməlidir. Ermənistan enerjini su elektrik stansiyalarının sayını artırmaqla əldə edə bilər. Bunu beynəlxalq təşkilatlara çatdırmaq lazımdır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Prezident İlham Əliyev Avropa Komissiyasının yeni rəhbərini təbrik edib

**Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının yeni seçilmiş prezidenti Şarl Mişelə təbrik məktubu göndərib.**

"Report" xəbər verir ki, məktubda deyilir: "Ümidvaram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da genişlənməsi, əməkdaşlığımızın hərtərəfli inkişafı və dərinləşməsi istiqamətində birgə səylər göstərəcəyik".

Avropa Komissiyasının yeni seçilmiş prezidenti Ursula fon der Lyayenə təbrik məktubunda prezident İlham Əliyev inandığını bildirib ki, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlıq qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək.

Azərbaycan prezidenti Avropa Komissiyasının yeni seçilmiş Prezidentinə möhkəm cansağlığı, xoşbəxtlik, qarşıdakı məsul işində uğurlar diləyib.



# Zakir Həsənov İranla hərbi əməkdaşlığın genişləndirilməsini müzakirə edib

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyulun 18-də İranın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadə ilə görüşüb.**

Nazirliyin Mətbuat xidmətindən "Report"a bildirilib ki, Müdafiə naziri Azərbaycan-İran münasibətlərinin inkişafında ölkə başçılarının görüşlərinin mühüm rol oynadığını qeyd edərək hərbi sahədə də əməkdaşlığın uğurla davam etdiyini vurğulayıb.

Nazir "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində ölkəmizin ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku-2019" müsabiqəsində Azərbaycan və İran hərbi dənizçilərinin birgə iştirakını Xəzər dənizinin təhlükəsizliyinin təmin edilməsinə töhfə kimi dəyərləndirib.

Diplomat isə öz növbəsində iki ölkə arasında hərbi sahədə əməkdaşlığın inkişaf etməsinin regional təhlükəsizliyin təmin olunmasında vacib amil olduğunu qeyd edib.

Tərəflər hərbi sahədə əməkdaşlığın genişləndirilməsi və hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Azərbaycan ilə İran arasında hərbi əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əlaqələrin inkişaf perspektivləri, eləcə də regional problemlər müzakirə olunub.

# İranla Avropa İttifaqına üzv dövlətlər arasında ticarət dövriyyəsi 76,46 faiz azalıb

**İranla Avropa İttifaqına üzv dövlətlər arasında ticarət dövriyyəsi ötən ilin uyğun dövrü ilə müqayisədə 76,46 faiz azalıb.**

"Report" xəbər verir ki, məlumatı "Financial Tribune" yayıb.

Bildirilib ki, bu ilin ilk dörd ayında Avropa İttifaqına üzv ölkələrlə İran arasında ticarət dövriyyəsi 1 milyard 610 milyon avro təşkil edib. Bununla da 2018-ci ilin uyğun dövrü ilə müqayisədə 76,46 faiz azalma müşahidə edilib.

Məlumata görə, hesabat dövründə İranın Malta, Kiprin yunan hissəsi və Bolqarıstanla ticarət dövriyyəsi uyğun olaraq 130,35 faiz, 70 faiz və 24,11 faiz olub. Ən az ticarət dövriyyəsi isə Yunanıstan (14,54 milyon avro), Lüksemburq (70 min 927 avro), İspaniya (68,24 milyon avro), Fransa (122,2 milyon avro) və İtaliya (264,37 milyon avro) ilə İran arasında reallaşıb. Başqa sözlə, İslam Respublikası ilə Yunanıstan arasında ticarət dövriyyəsi 97,82 faiz, Lüksemburqla 96,9 faiz, İspaniya ilə 93,13 faiz, Fransa ilə 87,85 faiz və İtaliya ilə isə 84,58 faizə enib.

# 100 kiloqram yararsız ətin satılmasının qarşısı alındı

**Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşlarının birgə həyata keçirdiyi monitorinq zamanı Gəncə şəhəri ərazisində Kazımov Babək Vilayəddin oğluna məxsus 20-DN-525 dövlət qeydiyyat nömrə nişanlı avtomobildə 100 kq istehlaka yararsız ət aşkar olunub.**



Belə ki, vətəndaşa məxsus avtomobilə baxış zamanı yük yerində 1 baş iribuynuzlu heyvan cəmdəyi aşkarlanıb. İlkin baxış zamanı ətin heç bir mənşə sənədi olmadığı, orqonoleptik göstəricilərinə görə, ətin qansızlaşdırılmasının düzgün aparılmadığı müəyyən edilib.

Ümumi çəkisi 100 kq olan, insan istehlakı üçün istifadəyə yararsız, mənşəyi məlum olmayan ətin ölmüş heyvana məxsus olduğu ehtimal edilərək ondan nümunələr götürülüb və məhv edilməsi üçün zəruri tədbirlər görülüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.

Qida Təhlükəsizliyi Agentliyi vətəndaşların sağlamlığının qorunması, əhalinin təhlükəsiz qida ilə təmin edilməsi istiqamətində nəzarət tədbirlərini bundan sonra da davam etdirəcək.

# Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejiminə keçir

**20-28 iyul 2019-cu il tarixlərində Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalı ilə əlaqədar təhlükəsizliyin aidiyyəti üzrə təmin edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi gücləndirilmiş iş rejimində çalışacaq.**




Nazirlikdən verilən məlumata görə, oyunların keçiriləcəyi idman obyektlərində və ətrafında, qonaqların yerləşəcəyi otellərdə, habelə insanların kütləvi toplaşdığı məkanlarda, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrin qarşısının çevik alınması, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılmasının təmin edilməsi məqsədilə nazirliyin aidiyyəti qüvvə və vasitələri yüksək hazırlıq vəziyyətinə gətirilib.

Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov bununla bağlı müvafiq əmr imzalayıb.

# Bakıda 35, rayonlarda 40 dərəcə isti olacaq

**Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, iyulun 19-da Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək, mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 22-25, gündüz 30-35, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti təşkil edəcək. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz olacaq.

Abşeron çimərliklərində mülayim şimal-qərb küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25 dərəcə isti təşkil edəcək.

Azərbaycanın rayonlarında isə hava əsasən yağmursuz keçəcək, lakin axşam saatlarında bəzi dağlıq rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 35-40, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti təşkil edəcək.

İyulun 19-20-də Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda iqlim normasına yaxın temperatur rejimi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Bakı bazarlarında qızıl qiymətinə qara kürü

## Kürünün ən ucuz qiyməti – 100 qramı 70 manatadır; 17-ci əsrədək qara kürü kasıb kəndli yeməyi sayılırdı, indi isə...

**Ötən günlərdə azərbaycanlının Rusiyada 1 tondan çox qara kürü ilə yaxalanması ilə bağlı xəbər yayıldı. Xəbərdə bildirilib ki, polis əməkdaşları FTX ilə birlikdə əməliyyat-axtarış tədbiri həyata keçirərək Jukovsk aeroportunun yük terminalında qaçaqmal şəklində qara kürü partiyasını aşkar edib. Qeyri-leqal yük MDB respublikalarının birindən gündəlik tələbat malı adı altında gətirilib. İstintaqın məlumatına görə, qaçaqmalı iki xarici vətəndaş-30 yaşlı Çin və 60 yaşlı Azərbaycan vətəndaşı təşkil edib. Onlar kürünü Rusiya ərazisində satmağı planlaşdırıblar. Adı açıqlanmasa da, ehtimal edilir ki, bu kürülər Qazaxıstandan gətirilib...**

Yada salaq ki, Azərbaycandan xaricə yalnız 125 qrama qədər nərə cinsli balıq kürüsü çıxarılmasına icazə verilir. 125 qramdan artıq kürünü dövlət sərhədindən çıxarmaq mümkün deyil. 125 qram kürünün qiymətinə gəlincə isə, ilk olaraq qeyd edək ki, bazara hazırda qara kürü adı altında xeyli saxta məhsullar da satılır. Bunların qiymətləri isə müxtəlifdir.

"Təzə bazar"da öyrəndik ki, bazara kürülər əsasən xaricdən gətirilir. Xaric dedikdə Dağıstan və Həştərxan nəzərdə tutulur. Satıcılar aşağıdakıları söylədilər: "Hazırda bazarda qara kürünün 100 qramı 70 manatdan başlayır. Dənəvari kürülər bahadır. Bu cür kürünün 100 qramının qiyməti 110 manat və daha yüksəkdir. Alıcı yaxşı kürünü dadından və tərkibindən tanıya bilər. Əgər kürü yapışqandırsa, deməli, yaxşı deyil. Dənəvari kürülər isə ən yaxşı kürü hesab edilir. Burada hər cür kürüyə rast gəlmək olar. Kürü çıxarılmış formada gətirilir. Balığın qarnının kəsilib çıxarıldığı yerdə kürünün kiloqramının qiyməti 1000 dollardan aşağı deyil".

Bazarda qırmızı kürünün kiloqramının qiyməti 180-240 manat arasında dəyişir. Bakıda "8-ci kilometr bazarı"nda da qara kürü satılır. Orada da qiymətlər, demək olar ki, eynidir. Hazırda mövsümlə bağlı olaraq balığa və qara kürüyə olan tələbat aşağı düşdüyü üçün satıcılar yuxarıda qeyd etdiyimiz qiymətlərə 10-12 manat endirim edirlər. Payız aylarında isə qiymətlər yuxarıda qeyd etdiyimiz qiymətlərdən bir qədər də baha olur.

Mağazalarda isə daha çox Rusiya istehsalı olan saxta kürülər satılır. Bu kürülərin ən bahasının 125 qramı 6 manatadır. Açıq şəkildə bu qiymətdən baha olan kürünün satıldığına rast gəlmədik. Vitrinlərdə hətta 100 qramı 2.5 manata olan Rusiyada qablaşdırılan kürüyə də rast gəlmək olar.

Əsl kürünün qiymətinin bu qədər baha olması onu sadə insanlar üçün əlçatmaz edib. **Bəs kürü nə üçün bu qədər bahadır? Onun faydası nədir?**

Məlumat üçün qeyd edək ki, 17-ci əsrədək qara kürü kasıb kəndli yeməyi sayılırdı. Lakin sonralar əvvəlcə rus çarlarının, ardınca isə Avropa aristokratlarının süfrəsinə yol tapan kürü indi dünyanın ən ləziz və delikates ərzaq növü sayılır. Kürüyə tələbatın artması və onun məhdud miqdarda olması qiymətini baha edən faktor kimi xarakterizə edilir. Ekspertlər adətən bildirirlər ki, kürü də qızıl kimi bir şeydir-dünyada az olduğu üçün qiyməti də süni şəkildə qaldırılıb... Ancaq kürünün faydaları böyükdür.

Normal qidalanmaq üçün hər bir insanın qida rasionunda digər ət növləri ilə yanaşı balıq və balıq məhsulları da olmalıdır. Hər bir adam ildə 18-20 kq balıq əti, o cümlədən 150-200 qram qara kürü yeməlidir. Azərbaycanda isə qara kürü çoxları üçün əlçatmazdır...

Onu da qeyd edək ki, qırmızı kürü tez xarab olduğu üçün qara kürü qədər effektiv deyil. Məlumatlara görə, hələ 100 il əvvəl balıqçılar qırmızı kürünü balığın içalatı ilə birgə istifadə etmədən atardılar. Qırmızı kürü tez xarab olduğundan onu qida kimi qəbul edən insanda zəhərlənmə baş verməsi mümkün idi. O baxımdan qırmızı kürüdən istifadə edilmirdi. Belə ki, qırmızı kürünün duzlanması 19-cu əsrin sonlarına təsadüf edir.



Qırmızı kürünün keyfiyyətini çox asan yolla aydınlaşdırmaq olar. Belə ki, səthi hamar olan bir qab götürülür və qırmızı kürüdən bir iki dənəsi onun üzərinə qoyulur və kürülərə üfürülür. Əgər kürü dənəcikləri qabın dibinə yapışıb qalırsa, deməli, kürü yaxşı deyil. Lakin kürü dənəcikləri qabın dibində üfürdükdən sonra rahat hərəkətə gəlirsə, bu o deməkdir ki, kürü keyfiyyətlidir və qida kimi istifadə edilə bilər.

Qırmızı kürünün tərkibi 30% insan orqanizminin rahatlıqla qəbul edəcəyi zülallarla zəngindir. Bu baxımdan zəifləmiş və ağır xəstələrə bu kürüdən istifadə etmək tövsiyə olunur. Qırmızı kürü orqanizmin güclənməsinə yardım edir.

Qırmızı kürü Uzaq Şərq balıqçıları arasında ucuz ərzaq növü hesab edilirdi. Qara kürü isə immunitet sisteminin gücləndirilməsi üçün minerallarla zəngindir. Eyni zamanda beyinin inkişafı, dərinin cavan qalması, açıq yaraların müalicəsi üçün də qara kürüdən istifadə edilir. Qara kürü beyinin sağlamlığına yardım edən ən yaxşı qidalardan biri sayılır. Tərkibində insan bədəninin öz-özünə yarada bilmədiyi "omega-3" yağının zəngin olması səbəbindən də qara kürü faydalıdır. Ümumilikdə gündəlik 1 qaşıq qara kürü yemək orqanizmin bir çox vitaminlərə olan ehtiyacının ödənilməsi deməkdir.

Rəsmi açıqlamalara görə, hər il Azərbaycanda 70-80 min ton nərə ovlanır. Bir nərə isə 5-6 kilo kürü verməkiqtidarındadır. Azərbaycanda 2013-cü ildə Xıllı Nərə Balıqartırma Zavodunda ilk dəfə olaraq süni yolla kürü yetişdirilib. 2003-cü ildən istifadəyə verilmiş Xıllı Nərə Balıqartırma Zavodunda yetişdirilən törədici döllük səviyyəsinə çatdırılmış 7-8 yaşlı 2 dişi nərə balığından süni yolla 5 kq - 260 min ədədə yaxın kürü alınıb. Süni yolla alınmış kürülər eyni üsulla yetişdirilmiş 2 erkək nərə balığının mayası ilə mayalandırılaraq inkubasiya aparatlarına yerləşdirilib və bundan 200 mindən çox sürfə alınıb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İrəvan işğal rejiminə Qərbdə dəstək axtarır - təhlükəli oyun

## Putinin Ermənistana gözlənilən kritik səfəri ərəfəsində maraqlı gəlişmə; **politoloq:** "Paşinyanın tək ümidi Qərbə qalıb..."

**Ermənistan rəhbərliyi xarici siyasətdə "iki stul" taktikasını davam etdirir. Baş nazir Nikol Paşinyan ümid edir ki, bu yolla həm Rusiyanın, həm də Qərbin, özəlliklə də ABŞ-ın eyni zamanda dəstəyini ala biləcək. Söhbət ən azından siyasi dəstəkdən gedir. Bu, Azərbaycan torpaqlarının işğalını davam etdirmək üçün rəsmi İrəvana hava-su kimi lazımdır.**




Diqqətçəkicidir ki, srağagün Ermənistanın müdafiə naziri David Tonoyan İrəvanda ABŞ səfiri ilə görüşüb. Bundan əlavə, Rusiyanın vassalı olan Ermənistanın iki yüksək vəzifəli şəxsi hazırda ABŞ-da səfərdədir. Bunlar - xarici İşlər naziri Zöhrab Mnatsakanyan və parlamentin spikeri Ararat Mirzoyandır. Ermənistan baş nazirinin müavini Tiqran Avinyan da dünən Amerikaya yola düşüb. Onun Nyu-Yorkda hansısa konfransda iştirak edəcəyi deyilir. Politoloq Elxan Şahinoğlunun təbirincə desək, Nikol Paşinyan Amerikaya əməlli-başlı siyasi desant göndərib. Ancaq nəticə olacaqmı?

Bir çox təhlilçilərə görə, Paşinyan Amerikadan pul qopara bilməsə də, heç olmasa, siyasi dəstəyə ümidlidir. Ancaq ABŞ özünə ən təhlükəli rəqib saydığı Rusiyanın forpostu rolunu davam etdirən Ermənistana belə dəstəyi verərmi? Sözsüz ki, Birləşmiş Ştatlardakı erməni lobbisi bu yöndə var gücü ilə çalışır, həmçinin xristian amili məsələdə ermənilərin xeyrinə işləməkdədir. Amma ABŞ üçün "qırmızı xətt" deyilən anlayış var ki, bu da onun geosiyasi maraqları, o sırada Güney Qafqazla bağlı dəyişməz strategiyası ilə birbaşa bağlıdır.

*****

"Hazırda Ermənistan rəsmilərinin ABŞ-a səfəri, həmçinin Tonoyanın ABŞ səfiri ilə görüşü Ermənistanın gələcəkdə Rusiya, yoxsa qərbyönümlü siyasət yürütmək istəməsi ilə əlaqəlidir". "Yeni Müsavat"ın məlumatına görə, bunu Axar.az-a açıqlamasında **sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov** Ermənistanın hazırda ABŞ-da 3 ayrı-ayrı nümayəndə heyətinin olması, o cümlədən Ermənistan müdafiə naziri Tonoyanın ABŞ səfiri ilə görüşməsini şərh edərkən deyib.

O, bu yaxınlaşmanın səbəbini belə izah edib: "ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton, demək olar ki, hərbi siyasətdə ən təcrübəli, böyük nüfuza malik insanlardan biridir. Boltonun ötən ilin payızında Cənubi Qafqaza ilk dəfə səfər etməsi onu göstərir ki, ABŞ administrasiyası bölgədə uzunmüddətli passiv siyasətdən sonra aktiv siyasətə keçir. Boltonun Cənubi Qafqaz ölkələrinə və bölgə üzərinə təşkil olunan səfərində müxtəlif fikirlər səsləndirilib. Ən maraqlısı budur ki, Rusiyanın nüfuzunu azaltmaq üçün Ermənistanın ABŞ-dan silah alması məsələsi gündəmə gətirildi. Həmin təklif Azərbaycana da aiddir. Bu baxımdan düşünürəm ki, hazırda mövcud olan vəziyyət silahla yox, Ermənistanın bundan sonra rusiyapərəst, yoxsa qərbyönümlü siyasət aparması ilə bağlıdır. Paşinyan administrasiyası bəyan edir ki, erməni rəsmilərinin ABŞ-a müxtəlif səfərləri baş tutacaq. Yəni Paşinyan artıq bu qərara gəlib ki, Rusiya onları qəbul etmirsə, ABŞ-la daha aktiv əlaqələr qursun. Çünki Paşinyan başa düşür ki, ABŞ Ermənistanın həm Rusiya ilə, həm də Qərblə yaxın əlaqələr qurması ilə razılaşacaq qədər sadəlövh deyil. Bu baxımdan hesab edirəm ki, bu cür addımlar gələcəkdə Ermənistanda hansısa ciddi daxili siyasi böhrana gətirib çıxaracaq".

T.Zülfüqarovun sözlərinə görə, erməni rəsmilərinin ABŞ-a səfəri və son zamanlar keçirilən görüşlər Rusiya prezidenti Vladimir Putinin payızda gözlənilən Ermənistan səfərinə də təsir edə bilər: "Ümumiyyətlə, Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra belə fikirlər səsləndirilirdi ki, o, Qərbdən dəstək alıb. Bir müddət sonra Paşinyan çalışdı ki, Rusiya ilə əlaqələri düzəltsin. Payız aylarında Putinin Ermənistana səfəri gözlənilir. Bütün bu proseslər, təbii ki, həmin səfər ərəfəsində yenidən nəzərdən keçiriləcək. Rusiyanın Ermənistanla bağlı əsas iradlarından biri ondan ibarətdir ki, rusiyapərəst siyasətçilər bu və ya digər səbəblərə görə siyasətdən və hakimiyyətdən uzaqlaşdırılır, müxtəlif ittihamlarla həbs edilirlər. Onlardan Rusiyaya ən yaxın olan və dəstək alan Köçəryandır. Köçəryanla bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Çünki Putinin xahişi ilə Köçəryan azadlığa buraxılmalı idi, amma bu, baş vermədi".

Politoloqun fikrincə, Paşinyan artıq Rusiya ilə bağlı siyasətinin faydasız olduğunun fərqindədir: "Yəni bu hadisələrin fonunda hiss olunur ki, artıq Paşinyan başa düşüb ki, onun bu cəhdləri nəticə vermir və verməyəcək. Çünki Rusiya ona müxalif olan qüvvələri, Qarabağ klanına aid insanları dəstəkləyir. Bu baxımdan Paşinyanın yeganə ümidi Qərbdir".

*****

Ancaq əminliklə söyləmək olar ki, Qərb Rusiyadan hərbi-siyasi asılılıqda qalmaqda davam edən Ermənistana və onun rəhbərinə birtərəfli qaydada dəstək verməyəcək. Versəydi, bunu "məxməri inqilab"dan ötən 1 il 2 ayda edərdi. Yeganə əngəl, əlbəttə ki, Rusiyadır. Rusiya da öz növbəsində Paşinyan iqtidarının hərəkətlərini, xüsusən də xarici siyasətlə bağlı addımlarını və manevrlərini diqqətlə izləyir.

Şübhə yox ki, Moskva Qərbə, ABŞ-a sarı kəskin dönüş edəcək Ermənistan rəhbərliyinin başını tumarlamayacaq. O halda Kreml Nikol Paşinyan üçün həm daxildə, həm də Qarabağ cəbhəsində "sürprizlər" hazırlaya bilər. Erməni baş nazir isə indilikdə Rusiya və Qərb arasında tarazlıq yaratmaqla, daha dəqiqi, oynamaqla işğal rejimini bir müddət də davam etdirmək niyyətindədir.

Bu xüsusda Putinin oktyabrda Ermənistana gözlənilən səfəri kritik hesab oluna və bütün "kartlar"ı aça bilər. Xatırladaq ki, bu günlərdə erməni nəşrlərindən biri Moskvanın səfər reallaşanadək Putinin dostu Robert Köçəryanın azad olunmasını istədiyini yazmışdı. Bu, Köçəryan amilinin, Qarabağ klanının Kreml üçün önəmini göstərməklə yanaşı, Qərbdə dəstək axtarışına çıxan Paşinyan hökumətinə növbəti xəbərdarlıq, hətta təhdid sayıla bilər...



# Ermənistanla sərhəddə düşmən təxribatı: sərhədçimiz yaralandı

**Ermənistanla sərhəddə dünən insident qeydə alınıb. Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzinin bununla bağlı yaydığı məlumatda deyilir: "18 iyul 2019-cu il tarixdə saat 00:20 radələrində Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən Ermənistanın Noyemberyan rayonunun Zorakan kəndi istiqamətindən iriçaplı silahlardan atəş açılmaqla atəşkəs rejimi pozulmuş, Qazax rayonunun II Şıxlı kəndi yaxınlığındakı sərhəd döyüş məntəqəsinin mövqeləri atəşə tutulub.**

Düşmən cavab atəşi ilə susdurulub. Hadisə zamanı Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqəsində döyüş növbəsində xidmət aparan əsgər Ceyhun Bayramov yaralanıb. Sərhədçi əsgərə dərhal təxirəsalınmaz tibbi yardım göstərilib və hazırda həyatı üçün təhlükə yoxdur".

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev hadisə yerində olub, sərhəd döyüş məntəqəsinin şəxsi heyəti ilə görüşüb, xidməti-döyüş fəaliyyətinin daha da gücləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verib.

# ABŞ-ın "İran təranələri" siyasəti- gah müharibə, gah danışıq...

## Ağ Evin Tehranla bağlı bu cür ziqzaqlı siyasəti nədən qaynaqlanır?

**ABŞ-ın dövlət katibi Mayk Pompeo İranla qeyd-şərtsiz danışıqlara başlamağa hazır olduqlarını bildirib. Mayk Pompeo İranın ali dini lideri ayətullah Əli Xamenei başda olmaqla ölkənin siyasi rəhbərliyi tərəfindən beynəlxalq terrorizmin ən böyük sponsoru olmaq, bütün dünyanı nüvə silahları ilə hədələmək əvəzinə, dünya birliyinə qoşulmaq üçün danışıqlar aparmağa qərar verilməsinin zəruri olduğunu söyləyib.**

Dövlət katibi bəyan edib ki, onlar belə bir qərar verməlidir və belə edərlərsə, onda prezident Donald Trampın dediyi kimi, Vaşinqton onlarla bir masa arxasında əyləşib buna necə gəlib çıxmaq barədə söhbət etməyə hazırdır: "Onlarla qeyd-şərtsiz görüşməyə hazırıq və onların da buna əməl etmələrinə ümidvarıq".

Son bir ayda bu, ABŞ-dan İranla bağlı ilk yumşaq mövqedir. Buna qədər başda Donald Tramp olmaqla ABŞ rəhbərliyi İrana qarşı ən sərt ritorika ilə bəyanatlar verirdilər, hətta İran müharibə ilə hədələnməyə başlanmışdı. İndi birdən-birə ABŞ-ın dövlət katibi Mayk Pompeo İranla qeyd-şərtsiz danışıqlara başlamağa hazır olduqlarını bildirir.

*ABŞ-ın İranla bağlı bu cür ziqzaqlı siyasəti nədən qaynaqlanır? Bir müddət az qala İranla müharibəyə başlamaq üzrə olduqlarını nümayiş etdirən bəyanatlar verilir, qəfildən əyləc basılır və yumşalma xətti seçilir. Bu dəyişkənlik ABŞ hakimiyyətində İranla bağlı birmənalı mövqeyə gəlməyin mümkün olmadığı, fikir ayrılıqlarının olduğundan irəli gəlir, yoxsa görünməyən daha ciddi məsələlər var? Eyni zamanda bu siyasət ABŞ-ın dünyada ciddi imicinə mənfi təsir edirmi?*



**Politoloq Əhəd Məmmədli** "Yeni Müsavat"a bildirdi ki, İran bəlkə də yeganə müsəlman ölkəsidir ki, ABŞ-ın siyasəti həmişə bu ölkəyə birmənalı olub-mehriban düşmən. ABŞ İrandan düşmən obrazı düzəldib, amma bu, heç vaxt müharibə etməyəcək düşmən statusunda qalmaq şərti ilə edilib: "Əslində ABŞ İranla heç vaxt müharibə edəsi deyil. Üzdə İranla bağlı ziqzaqvari siyasət olduğu görünsə də, əslində məhz İranla heç vaxt ziqzaqvari siyasət olmayıb. İranla həmişə sabit siyasət olub. Bu siyasət hədə-qorxulardan o yana keçməyib. Uzun illərdir tətbiq olunan bu siyasət, görürsünüz ki, yenə dama edir. Bir neçə gün öncəyə qədər çoxları hesab edirdi ki, ABŞ-ın İrana zərbə endirməsi an məsələsidir, indi danışıqlar masasına əyləşmək müzakirə mövzusudur və bu mövqe də məhz Vaşinqtondan sərgiləndi".

Politoloq onu da qeyd etdi ki, bir tərəfdən ABŞ İrana qarşı sanksiyalar tətbiq edib, o biri tərəfdən ABŞ-ın Avropadakı müttəfiqləri Britaniya, Fransa, İtaliya İrandan neft alıblar, ticari əlaqələr qurublar. Bu cür vəziyyət illərdir davam edir. Tarix boyu müsəlman coğrafiyasında Qərb, Rusiya, Çin üçün də İran dövlətinin mövcudluğu lazım olub: "İranda rejimlər, hakimiyyətlər dəyişə, dəyişdirilə bilər, lakin İran dövlətinin varlığı həmişə saxlanılar. İranla bağlı bu strategiya dəyişməz olaraq qalır. Ona görə mənim üçün heç də təəccüblü olmadı ABŞ-ın dövlət katibi Mayk Pompeonun İranla bağlı qeyd-şərtsiz danışıqlara başlamağa hazır olduqlarını bildirməsi".

Bu siyasətin ABŞ-ın imicinə təsirinə gəldikdə isə, politoloq dedi ki, hələ İranın qarma-qarışıq vaxtında, Tehranda amerikan səfirliyinə hücum edilən zaman Vaşinqton bu ölkəyə hücum etmədisə, indi, ümumiyyətlə, edən deyil. Halbuki səfirliyə hücum, orada əsirlərin götürülməsi bilavasitə müharibəyə səbəb idi: "Zəif İranla müharibə etməyən Amerika, güclü İranlamı müharibə edəcək? Özü də indiki vaxtda? Təbii ki, xeyr. Dövlətlər fərdlərdən fərqli olaraq öncə maraqlarını düşünürlər, sonra imiclərini. İmic çox şeydir, amma hər şey deyil. Böyük dövlətlər lazım gələndə geri çəkilməyi də bacarırlar. Zatən elə etməsəydilər böyük dövlət də ola bilməzdilər. Siyasət emosiyanı deyil, soyuqqanlılığı, hərbi deyil, diplomatiyanı sevən peşədir. Ona görə burada imicin zədələnməsi əvəzinə, maraqlara cavab verən siyasəti önə sürərdim. ABŞ maraqlarını imicindən üstün tutur. Yuxarıda qeyd etdiyim kimi, İranın dövlət kimi bütöv qalması Amerikanın da maraqlarına cavab verir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Dünyanın ən dəyərli və ən ucuz 10 valyutası - siyahı



## Avropa Birliyinin vahid valyutası olan avro dəyərinə görə yeddinci yerdə gəlir

**Dünyada yüzlərlə milli valyuta var: hər ölkə daxili ticarətində öz milli valyutasından istifadə edir. Əsrlər boyu zaman-zaman bu valyutaların dəyəri artıb-azalır. Hər bir milli valyutanın alıcılıq qabiliyyəti nə qədər yüksəkdirsə, onun dəyəri də bir o qədər yüksək qiymətləndirilir. Milli valyutaları dəyərli edən əsas amillərdən biri də stabillikdir - tez-tez dəyəri dəyişən valyutalar qeyri-sabit və aşağı dəyərli hesab olunurlar.**

Maraqlıdır ki, iqtisadiyyatda milli valyutanın bahalılığı heç də həmişə müsbət amil hesab olunmur. Bəzən ucuz valyuta iqtisadiyyat üçün daha əlverişlidir, nəinki baha.

Ötən əsrin 60.-cı illərindən etibarən dünyanın ən dönərli valyutası ABŞ dollarıdır: ölkələrarası ticarətin 70 faizdən yuxarısı bilavasitə bu valyuta ilə, daha 20 faizi isə çarpaz məzənnə olaraq dolayısı ilə onunla həyata keçirilir. Və ayrı-ayrı ölkələrin milli valyutalarının dəyəri də onların dollarla olan məzənnəsi əsasında hesablanır.

"Yeni Müsavat" olaraq dünyanın ən bahalı və ən ucuz 10 valyutasını təqdim edirik

**Bahalı valyuta kimdədir?**

Beləliklə, bu gün dünyanın ən çox istifadə olunan valyutası dollardırsa, ən dəyərli valyutası isə Küveyt dinarıdır - 1 dinar 3,32 dollara bərabərdir. Cəmi 1 milyona yaxın əhalisi olan Bəhreyn Krallığının dinarı isə ikinci dəyərli valyuta hesab olunur: 1 BD 2,66 dollara bərabərdir. Hər iki ölkənin əsas gəlir mənbəyi neft-qazdır.

Ərəbistan yarımadasında yerləşən Omanın milli valyutası isə dünyada dəyərinə görə 3-cü yerdə qərarlaşıb. Oman dünyanın ən inkişaf etmiş və yüksək gəlirli dövlətlərindən biri hesab olunur. Oman rialının dəyəri 2,6 dollardır.

İqtisadiyyatı elə də yüksək inkişaf etməyən İordaniyanın milli valyutası olan dinar 1,43 dollara bərabər hesab olunur.

Bir zamanlar dünyanın ən bahalı valyutası hesab olunan Böyük Britaniya funt-sterlinqi isə dəyərinə görə 5-ci yerdə gəlir - 1,32 dollardır.

Dünyanın 6-cı ən dəyərli valyutasına malik Kayman adaları Böyük Britaniyanın protektoratlığı altında olsa da, öz valyutasına malikdir. 1 KYD 1,21 dollara bərabərdir.

Avropa Birliyinin vahid valyutası olan avro dəyərinə görə yeddinci yerdə gəlir - 1 avro 1,12 dollara bərabərdir. Hazırda dünyada yığımların 23 faizə qədəri məhz avro ilə aparılır. 63 faizə yaxını isə ABŞ dolları ilədir.

Avropanın, elə dünyanın ən inkişaf etmiş və ən stabil iqtisadiyyatına malik İsveçrənin milli valyutası olan frank dəyərinə görə səkkizincidir - 1 frank 1,03 dollara bərabərdir.

Dünyanın ən dönərli valyutası olan ABŞ dolları isə dəyərinə görə doqquzuncu yerdə qərar tutur.

Nəhayət, onuncu ən dəyərli milli valyuta Liviya dirhəmidir - 1 dirhəm 72 sentə bərabərdir.

Qeyd edək ki, 2015-ci il devalvasiyalarına qədər Azərbaycan manatı dünyanın ən dəyərli milli valyutaları arasında 10-cu yerdə qərarlaşmışdı...

**Ən dəyərsiz milli valyutalar**

Hazırda dünyanın ən dəyərsiz valyutası İran rialı hesab olunur - İran Mərkəzi Bankının məzənnəsinə əsasən 1 dollar 43 min riala bərabərdir. Qara bazarda isə bu məbləğ 1 dollar üçün 112 min riala qədər yüksəlib. Halbuki ötən ilin mayına - ABŞ bu ölkəyə sanksiyalar tətbiq edənədək İran milli valyutası dəyərsiz valyutalar arasında 6-7-ci yerlərdə qərar tutmuşdu.

İkinci dəyərsiz valyuta Vyetnam donqu hesab olunur. Bir dollar 23,5 min donqa dəyişdirilir.

Daha bir Asiya ölkəsi olan İndoneziyanın valyuitası - rupi dünyanın 3-cü ən ucuz valyutası hesab olunur. Hazırda 1 dollar 14,5 min İndoneziya rupisinə bərabərdir.

Qvineya Respublikasının frankı ucuzluğuna görə dördüncü yerdə gəlir. Bir dollar 9,1 min franka dəyişdirilir. Qızıl, almaz, alüminium yataqları ilə zəngin olan bu ölkədə yoxsulluq və quldurluq hökm sürür.

Tədavülə buraxıldığı 1952-ci ildən bəri dəyər itirməyən, əksinə, mövqeyini getdikcə möhkəmləndirən Laos kipi dünyanın 5-ci ən dəyərsiz valyutası hesab olunur. Bir dollar 8,53 min kipə bərabərdir.

Altıncı yerdə isə Syerra Leonenin leonesi gəlir - 1 dollar 8,5 min leoneyə mübadilə olunur.

Özbəkistanın milli valyutası olan sum alıcılıq qabiliyyətinin aşağılığına görə dünya yeddincisidir - 1 dollar 8,4 min sumdur.

Səkkizinci ucuz milli valyuta olan Paraqvay quaranisi ilə 1 dollar almaq üçün 6 min quarani ödəmək lazım gəlir.

Kambocanın yerli pulu olan riel dəyərsizliyinə görə dünya doqquzuncusudur. Bu ölkədə 1 dollar 4 min rielə dəyişdirilir.

Nəhayət, ən ucuz milli valyutalar onluğunu Uqanda şilinqi tamamlayır. Bir dollar əldə etmək üçün 3,72 min şilinq sərf etmək lazımdır.

**Burger indeksi və Rusiya rublu**

Onu da qeyd edək ki, milli valyutaların dəyərini ölçmək üçün bir sıra indekslərdən də istifadə olunur. Bu indekslər arasında "The Economist" jurnalının 1986-cı ildən bəri tətbiq etdiyi Big Mac indeksi populyarlığı ilə seçilir. Məşhur "McDonalds" restoranlar şəbəkəsinin məhsulu olan burgerin dünya ölkələrində qiyməti əsasında hesablanan indeks milli valyutaların alıcılıq qabiliyyətinin müəyyənləşdirilməsi üsullarından biridir.

"Big-Mac" indeksi alıcılıq qabiliyyəti paritetinin qeyri-rəsmi hesablanma üsulu kimi qəbul olunub. Bu indeksə görə, müxtəlif ölkələrdə əmtəə səbətinin qiyməti valyuta məzənnəsi sayəsində bərabərləşdirilməlidir. Sadəcə, əmtəə səbəti əvəzinə burada "McDonalds" şirkəti tərəfindən hazırlanan standart burger götürülür. İndeksin hazırlanmasına səbəb müxtəlif ölkələrin valyutalarının real məzənnəsini təsbit etməkdir.

2019-cu ilə dair Big Mac indeksinə əsasən Rusiya rublu dünyanın ən dəyərsiz milli valyutasıdır. Belə ki, ABŞ-da 1 burger 5,58 dollara, Rusiyada isə 1,67 dollara başa gəlir. Türkiyə lirəsi isə ikinci ən dəyərsiz valyutadır - 1 burger 1,77 dollara başa gəlir. Azərbaycanda bir burgeri 2,33 dollara əldə etmək mümkündür.

Big Mac indeksinə görə, dünyanın ən dəyərli valyutası İsveçrə frankıdır - 1 burger 6,55 dollara başa gəlir. İkinci yerdə isə İsveç gəlir -1 burger üçün bu ölkədə 5,74 dollar ödənməlidir.

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019




# İcbari tibbi sığortanın tətbiqi: əhali sağlam olacaq, həkimlər qazanacaq...

## Ölkə əhalisinin 45 faizini təşkil edən uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar icbari tibbi sığorta haqqı ödəməyəcək

**Bu günlərdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi məlumat yayaraq bildirib ki, 2020-ci il 1 yanvar tarixindən etibarən icbari tibbi sığorta bütün ölkəni əhatə edəcək. Həmçinin Azərbaycanda ölkə əhalisinin 45 faizini təşkil edən uşaqlar, tələbələr, pensiyaçılar, sosial müavinət və ünvanlı sosial yardım alan şəxslər, hamilə və sosial məzuniyyətdə olan qadınlar icbari tibbi sığorta haqqı ödəməyəcək. Onlar üçün sığorta haqqının dövlət büdcəsi hesabına ödənilməsi nəzərdə tutulub.**

**Bəs ümumilikdə icbari tibbi sığorta nə deməkdir?**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ölkə prezidentinin 2007-ci il tarixli sərəncamı əsasında yaradılıb. Qurum 2016-cı ildə fəaliyyətə başlayıb. Agentliyin fəaliyyətinin məqsədi aşağıdakılardan ibarətdir:

- Əhalini icbari tibbi sığortaya cəlb etmək, icbari tibbi sığortanın maliyyə dayanıqlığını təmin etmək; İcbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərdən istifadə edilməsində əhali üçün bərabər şərtlər yaratmaq; İcbari tibbi sığortanın hamı üçün əlçatan olması, əhalinin sağlamlığının qorunması məqsədilə tibbi xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində tədbirlər görmək və sairə.

**İcbari tibbi sığorta çərçivəsində vətəndaşlar aşağıdakı xidmətləri əldə edə bilərlər:**

- Təcili və təxirəsalınmaz tibbi yardım (o cümlədən ambulans xidməti); İlkin səhiyyə (ailə həkimi) xidməti; Ambulator şəraitdə müayinə və müalicə; Stasionar müalicə; Funksional-diaqnostik müayinələr (USM, KT, MRT və s.); Fizioterapevtik xidmətlər; Laborator müayinələr; Hamiləlik və doğuş xidməti; Təcili vaksinasiyalar (quduzluq, tetanus, ilan zəhəri əleyhinə və s.); Uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiya; Cərrahi əməliyyatlar (o cümlədən dəyəri yüksək olan həyati vacib açıq və qapalı ürək-damar əməliyyatları, koxlear implantasiya və s.); Müxtəlif xəstəliklər üzrə ciddi dispanser müşahidə.

Qeyd edək ki, agentlik artıq bir sıra bölgələrdə pilot layihə də həyata keçirib. O cümlədən 2016-cı ildə Mingəçevir şəhəri və Yevlax rayonunda, 2018-ci ildə isə Ağdaş rayonunda. Məlumata görə, bu pilot layihələri çərçivəsində ümumilikdə 1 milyondan çox insana icbari tibbi sığorta xidməti göstərilib.

**Bəs bütün ölkəni əhatə edəcək icbari tibbi sığorta bizə nə verəcək?**

Agentlikdən sorğumuza cavab olaraq bunlar bildirilib:

“"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, həmin Qanunun tətbiqini təmin etmək məqsədilə ölkə başçısı 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərman imzalamışdır. 2020-ci ilin yanvarın 1-dən qüvvəyə minəcək Qanuna edilmiş dəyişiklikləri nəzərə alaraq, ölkənin səhiyyə sisteminin icbari tibbi sığorta tələblərinə uyğunlaşdırılması ehtiyacı yaranmışdır. Bu məqsədlə Agentlik tərəfindən tibb müəssisələrinin ilkin qiymətləndirilməsi həyata keçirilmiş və nəticədə 2019-cu il üzrə görüləcək işlərə dair tədbirlər planı işlənib hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq tibb müəssisələrinin elektronlaşdırılması ilə bağlı zəruri işlərin görülməsi və informasiya texnologiyalarının geniş tətbiqi nəzərdə tutulur. Cari aydan başlayaraq Agentliyin əməkdaşları tibb müəssisələrinin tam idarəedilməsini təmin edəcək proqram təminatından istifadə qaydaları üzrə xəstəxanalarda təlim keçirirlər. Bu təlim hazırlanmış plana uyğun olaraq icbari tibbi sığorta çərçivəsində fəaliyyət göstərəcək bütün tibb müəssisələrində keçiriləcək. Bununla yanaşı, tibb müəssisələrinin icbari tibbi sığorta sisteminə keçidini təmin etmək məqsədilə tibb işçilərinin biliklərinin artırılması və bacarıqlarının təkmilləşdirilməsi üçün bir sıra təlimlərin keçirilməsi planlaşdırılır.

Həmçinin icbari tibbi sığortanın ölkədə tətbiqindən sonra tibb işçilərinin əməkhaqları artacaq. Həkimlərin əməkhaqları iki hissədən ibarət olacaq. Birinci hissədə həkimin aldığı aylıq məvacib artacaq və bu, sabit olacaq. İkinci hissədə isə həkimin göstərdiyi xidmətə görə onun əməkhaqqına əlavələr olacaq. Həmçinin Agentlik tərəfindən həkimlərin bölgələrə cəlb olunması ilə bağlı müxtəlif tədbirlər hazırlanır.

Əhalinin icbari tibbi sığortalanması çərçivəsində yararlana biləcəyi xidmətlərin toplusunu ehtiva edən xidmətlər zərfinin hazırlanması istiqamətində işlər görülür. Xidmətlər zərfinə daxil olan tibbi xidmətlərin adları, tarifləri, azadolma məbləği, o cümlədən dərman vasitələri ilə təminat şərtləri təsdiq olunduqdan sonra bu barədə ictimaiyyətə məlumat veriləcək. Eyni zamanda dövlət tibb müəssisələrində göstərilən tibbi xidmətlərin keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Agentlik Səhiyyə Nazirliyi ilə birgə tibb müəssisələri üçün keyfiyyət standartları üzərində işə başlayıb".

Agentlikdən həmçinin bildirilib ki, 2020-ci il ərzində 20 standartın tətbiqi nəzərdə tutulub: "Standartlara uyğun fəaliyyət göstərən tibb müəssisələri Agentlik tərəfindən keyfiyyət indeksinə uyğun əlavə maliyyələşmə imkanı əldə edəcəkdir. Sonrakı illərdə isə keyfiyyət standartlarının sayının 200-ə çatdırılması nəzərdə tutulub. Məlumat üçün bildirək ki, 2 il müddətində Agentlik, Fransanın sosial səhiyyə ilə bağlı nazirliklərinin Avropa və beynəlxalq məsələlər üzrə nümayəndəliyi, eləcə də Litvanın sosial müdafiə qurumları tərəfindən Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək tviniq layihəsi həyata keçirilib. Layihə çərçivəsində bir sıra Avropa İttifaqı üzv dövlətlərinin müvafiq istiqamət üzrə mütəxəssisləri Azərbaycanda icbari tibbi sığortanın sınaqdan keçirilməsi, sistemin ölkə üzrə uğurlu tətbiqi və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün Agentliyə dəstək göstərmişlər. İcbari tibbi sığorta üzrə pilot layihənin qiymətləndirilməsi aparılmış və buna istinadən maliyyə idarəetməsinin düzgün tənzimlənməsi ilə bağlı təkliflər hazırlanmışdır. Layihə müddətində həmçinin icbari tibbi sığorta üzrə maliyyə resurslarının formalaşdırılması, Agentliyin institusional imkanlarının gücləndirilməsi və digər aidiyyəti məsələlər beynəlxalq ekspertlərlə müzakirə edilmiş, təlim səfərləri zamanı Fransa, Belçika və Litvanın təcrübələri öyrənilmişdir.

Həmçinin ölkə əhalisinin icbari tibbi sığorta sisteminin tətbiqi, sığortahaqqı, sığortalıların və sığortaolunanların hüquq və vəzifələri, azadolma məbləği və s. barədə məlumatlandırılması məqsədilə respublikanın müxtəlif regionlarında, paytaxt Bakının bütün rayonlarında, eləcə də ali təhsil müəssisələrində ilin sonuna qədər maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulub. İcbari tibbi sığorta barədə çap materiallarının, videoçarxların hazırlanması, məlumatlandırıcı postların hazırlanaraq Agentliyin sosial şəbəkələrdəki səhifələrində paylaşılması istiqamətində hazırda bir sıra işlər həyata keçirilir".

Həmçinin qeyd olunub ki, bu il Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən icbari tibbi sığorta barədə ictimai məlumatlılığın artırılmasına dair təşəbbüslər mövzusunda qrant müsabiqəsi elan edilib: "Müsabiqəyə müxtəlif bölgələrdə maarifləndirmə işinin aparılması ilə bağlı layihələr təqdim olunub. Müsabiqədə qalib gəlmiş QHT-lər respublikanın müxtəlif bölgələrində avqust ayından etibarən əhalinin maarifləndirilməsi istiqamətində tədbirlər keçirəcəklər".

**Tibb üzrə professor:** “Belə bir versiya irəli sürülür ki, hansı həkim daha çox xəstəyə baxacaqsa, o, daha çox maaş alacaq...”

**Mövzu ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla** "Yeni Müsavat"a danışaraq bildirdi ki, ümumiyyətlə, icbari tibbi sığorta sosial müdafiənin çox mühüm bir elementidir:

“İcbari tibbi sığorta olmadan Azərbaycan səhiyyəsini Qərb standartları çərçivəsində və formasında təsəvvür etmək mümkün deyil, çünki vətəndaşlara birbaşa xidmət edən səhiyyə formasıdır. İcbari tibbi sığorta pilot layihə olaraq bir neçə rayonda həyata keçirildi. Layihənin bütün ölkəni əhatə etməsi üçün kifayətedici vəsait ayrılmalıdır. Yəni bu vəsait Azərbaycan əhalisinin tibbi sığortasının xərclərini tam əhatə etməlidir. Əhatə edə bilmədikdə isə problemlər yaşanacaq, həkimlərin maaşlarında, gəlirlərində, ödəmələrin vaxtında olmamasında, təchizatın yetərincə olmamasında özünü göstərəcək. Belə olan halda icbari tibbi sığortanın Azərbaycansayağı bir variantı olacaq.

Belə bir versiya irəli sürülür ki, hansı həkim daha çox xəstəyə baxacaqsa, o, daha çox maaş alacaq. Bunun özü kökündən yanlışdır. Əslində icbari tibbi sığortada həkim seçimi o zaman ola bilər ki, hansısa klinikada yüksək səviyyəli, bütün titulları daha yüksək həkimin xəstəsi sığorta paketindən çıxır və o, artıq ödənişli olur. Qalan bütün hallarda həkim seçimi olmur. Hesab edirəm ki, biz dünyanın getdiyi yolla getməliyik. Ən azından Türkiyə təcrübəsinə istinad edə bilərik. İqtisadi vəziyyətdən asılı olaraq sosial sığorta ödənişləri də fərqli olur. Biz böyük ölkələrin tibbi sığorta xərclərinə baxsaq, məsələn, ABŞ, İngiltərə, Almaniya-bunlar Azərbaycan dövlət büdcəsindən dəfələrlə üstündür. ABŞ ilə, ümumiyyətlə, müqayisəyə gəlməz, İngiltərəni isə götürsək, tək səhiyyəyə ayrılan xərcləri 22 dəfə bizim dövlət büdcəmizdən üstündür".

❑ Xalidə GƏRAY,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019

# ""Lənkəranski"ni "o biri dünyaya göndərdik" deyən avtoritet məhkəmə qarşısında

## "Rəşad Gəncinski" kimi tanınan kriminal avtoritet Rəşad İsmayılov Minsk məhkəməsində nələr deyib?

**Minsk məhkəməsində dövlət ittihamçısı "Rəşad Gəncinski" kimi tanınan kriminal avtoritet Rəşad İsmayılovun məhkəməsi davam edir.**

"Sputnik Belarus" xəbər verir ki, "Rəşad Gəncinski" Rusiya vətəndaşıdır, Moskvada yaşayır, evli və dörd azyaşlı uşağı var. Həbs edilən sürücü Vaydar Məmmədov isə Azərbaycan vətəndaşıdır, müvəqqəti olaraq Moskvada yaşayır və rəsmi olaraq sürücü kimi çalışır. Rus dilində zəif bildiyi üçün məhkəmədə tərcüməçinin xidmətindən istifadə edilir. Dmitri Gritsuk isə Belarus vətəndaşıdır, Moskvada yaşayır, evlidir və iki azyaşlı uşağı var.

Müttəhimlər hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən Minsk yaxınlığındakı elit klubların birində silah, narkotik maddələr və saxta sənədlərlə saxlanılıblar.

Hadisə 2018-ci il noyabrın 20-də baş verib. Saxlanma zamanı R.İsmayılovun üzərindən başqasının adına pasport tapılıb. Onun sürücüsü olan belarusluda iki tapança və patronlar, digər azərbaycanlıda isə həşiş aşkar edilib.

Müttəhimlər qismən təqsirli olduqlarını etiraf ediblər. Məhkəmə salonunda müttəhimləri üzləri maskalarla örtülü xüsusi təyinatlı qüvvələrin əsgərləri qoruyur.

"Gəncinski" məhkəmədə deyib ki, 2012-ci ildə borclu olduğu adam ona saxta vətəndaşlıq və xarici pasport təklif edib. "O vaxtdan mən öz əsl adımdan istifadə etmirəm. Mən bu pasporta öyrəşmişəm, fikirləşmişəm ki, bu pasport qanunidir", - deyə o, məhkəmədə bildirib.





Qeyd edək ki, "Rəşad Gəncinski" 2017-ci ilin avqustunda Abxaziyada güllələnmişdi. Rus mənbələri yazırdı ki, "Gəncinski" Abxaziyanın Qudauti şəhərinə Nadir Səfilovun ("Lotu Quli") tapşırığı ilə gedibmiş. Səfərdə əsas məqsəd isə "Quli"yə yaxın olan "Nika Qaqrinski" ləqəbli "qanuni oğru" Nikolay Dqebuadzeyə dəstək vermək olub.

Məlumatda deyilirdi ki, "Nika" abxaz "qanuni oğru"ları tərəfindən sıxışdırılırmış. Bir qədər əvvəl "Quli" "Kuşa" ləqəbli Aleksandr Kuşnerova da Abxaziyaya yollanıb vəziyyəti nəzarətə almağı tapşırmışdı. Amma "Kuşa" Abxaziyaya girə bilməmişdi.

Qudautiyə gələn "Rəşad Gəncinski" və "Roma Stavropolski" şəhərdəki restoranların birində "Nika" ilə düşmən olan "qanuni oğru"ları cəzalandırmaq istəyiblər. "Stavropolski" yerli "qanuni oğru"lara güc nümayiş etdirmək istəyərkən isə "Pıza" ləqəbli qanuni oğru Raul Bartsba silaha əl atıb. Nəticədə azərbaycanlı "qanuni oğru" və "Nika Qaqrinski" güllə yarası alıblar. Rusiya mətbuatı yazır ki, "Gəncinski" ayağından yaralanıbmış və müalicəsini yarımçıq qoyaraq xəstəxanadan qaçıb. "Qanuni oğru"nun güllə ilə "həmkarını" yaralaması isə kriminal aləmdə geniş rezonans doğurub. Çünki bu, kriminal aləmdə qəbuledilməzdir. "Rosbalt" yazır ki, "Pıza" öz əməlini belə izah edib ki, onun oturduğu restorana gələnlər özlərini "qanuni oğru" kimi deyil, xuliqan kimi aparıblar. "Pıza" əlavə edib ki, "Nika Qaqrinski"nin "oğru" statusu sual altındadır, "Rəşad Gəncinski"ni" isə sifətdən tanımayıb. Bu səbəbdən də silaha əl atıb.

"Rəşad Gəncinski" "Quli"nin klanına qoşulduğu barədə məlumatlar hələ bir neçə il öncə yayılmışdı. Məlumatlarda deyilirdi ki, "Quli" "Rövşən Lənkəranski"nin qətlindən sonra güclənərək bir-birinin ardınca Moskva və Moskva ətrafında gəlirli ticarət obyektlərini, ticarət mərkəzlərini, bazarları öz nəzarətinə alıb.

Rusiya hüquq-mühafizə orqanlarındakı mənbə o zaman bildirmişdi ki, "Rəşad Gəncinski" qanqsterlər arasındakı söhbətlərdən birində "Lənkəranski"nin onun əmri ilə "o biri dünyaya göndərdiklərini" deyibmiş. "Rəşad Gənsinski" bildirib ki, "Lənkəranski"nin qətlinin motivi onun yaxın dostu, "göyərti kralı" kimi tanınan biznesmen Cambulat Şamiloğlunun öldürülməsidir.

Məlumat üçün deyək ki, "Rəşad Gəncinski" 1978-ci ilin 16 martında Gəncədə anadan olub. Gənc yaşlarında doğulub böyüdüyü məhəllədə xırda cinayətlərə qarışıb. Daha sonra Moskvada gəncəlilərin güclü olduğu bazarlarda tanınmağa başlayıb. Bir-iki dəfə Rusiya həbsxanalarında qısamüddətli cəzalar çəkib. 2010-cu ildə qanunsuz silah saxladığına görə 1 il müddətinə azadlıqdan məhrum edilib.

2013-cü ilin fevralında Moskvada böyük "sxodka" keçirilir. Həmin "sxodka"da azərbaycanlı "qanuni oğrular"dan Vaqif Süleymanov ("Vaqif Diplomat"), Əlibaba Həmidov ("Qoca Yasamalski" öldürülüb), Arif Mehdiyev ("Arif Sumqayitski"), Yunus Nəzərov ("Yunus Yasamalski"), Baxış Əliyev ("Vaxa"-öldürülüb) iştirak edib. "Sxodka"da "Rəşad Gəncinski" "qanuni oğru" kimi taclandırılıb.

❑ **ORXAN,**
**"Yeni Müsavat"**

# 2 il əvvəl aşkarlanan kəllə sahibi haqda ilginc ehtimallar

## Qorxunc tapıntının izləri Şimali Qafqaza aparır

**2 il əvvəl ölkə mediasının əsas xəbərlərindən biri Hövsan Aerasiya Stansiyası kollektorunda insan kəlləsinin aşkar edilməsi ilə bağlı idi. Qorxunc tapıntı haqda hüquq-mühafizə orqanlarına daxil olan məlumat əsasında hadisə yerinə yollanan istintaq-əməliyyat qrupu kollektordan güclü cins nümayəndəsinə məxsus kəllə, bundan 1 neçə gün əvvəl isə qolları kəsilmiş bədən çıxararaq məhkəmə tibb ekspertlərinə təhvil vermişdi.**



Həmin vaxt fakt üzrə Bakı Şəhər Prokurorluğunda qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanmışdı. Lakin araşdırmalar aşkarlanan başın sahibinin kimliyini indiyədək ortaya çıxara bilməyib. Bu günlərdə isə kəllə sahibinin kimliyini müəyyən edə biləcək məlumatlar ictimailəşib. Oxu.az-a istintaqın kəllə sahibi ilə bağlı qənaətləri haqda bəzi detallar bəlli olub.

Saytın yazdığına görə, istintaqçılar ehtimal edirlər ki, parçalanmış bədənin sahibi Azərbaycana Şimali Qafqazdan gəlib. Lakin ölkəyə daxil olan əcnəbilərin ölkəyə daxil olma və geri dönmə qeydləri araşdırılarkən bu ehtimalı doğrulda biləcək məlumatlar müəyyən edilməyib. Bu məqam özlüyündə bədəni hissələrə parçalanmış şəxsin ölkəyə Şimali Qafqazdan gəlməsi haqda ehtimalları sıfırlamır. Belə ehtimallar var ki, həmin şəxs ölkəyə qanunsuz yolla gəlib. Sərhədimizi gizli yolla və ya saxta sənədlərlə aşıb. Həmin şəxsin çeçen əsilli olması, kimliyi haqda istintaqçılarda tam təsdiq olunmayan məlumatların varlığı haqda da bilgilər var.

**Bəs ölkəyə qanunsuz gəlmiş çeçenin bu cür vəhşicəsinə kim öldürüb?**

Hazırda istintaqçılar bu sual ətrafında araşdırmalarını davam etdirirlər. 2 il əvvəl Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu hissələrə parçalanmış şəxsin baş hissəsinin fotosunu yaymaqla onun kimliyini tanıya biləcək şəxslərin köməyi ilə müəyyən etməyə çalışırdılar. "Yeni Müsavat"a daxil olan məlumata görə, istintaqçılar mərhumun qollarını da bu günə qədər axtarırlar. Bundan başqa, tapılan başın ekspertizası zamanı da iş üçün əhəmiyyət kəsb edə biləcək məqamlar üzə çıxıb. Aydın olub ki, mərhumun başı, qaşları, hətta kirpikləri də qırxılıb. Bu prosesin qətldən sonra həyata keçirildiyi ehtimal edilir.

Mərhumun qolları niyə xüsusi şəkildə gizlədilib? Niyə qaşları, başı, hətta kirpikləri qırxılıb? Meyitin öldürüləndən sonra hissələrə parçalanıb kanalizasiyaya atılmasının qətlin ört-basdır edilməsinə hesablanması birmənalıdır. Qatil bu hərəkəti "meyit yoxdur, fakt da yoxdur" düşüncəsi ilə etsə də, artıq meyit də, fakt da ortadadır. Amma belə görünür ki, qatil və ya qatillər hissələrə parçalanmış bədənin tapılacağı ehtimalını da nəzərdən keçiriblər və mərhumun qollarını kanalizasiyaya atmayıblar. Belədə daha bir sual yaranır - qatil qolları gizlətməklə nəyə nail olmaq istəyib?

Mümkündür ki, mərhum əvvəllər məhkum edilmiş şəxs olub və onun polisin kartotekalarında əl-barmaq izləri var. Qatil də mərhumun kimliyi haqda bilgili olduğundan qollarını kəsib və kanalizasiyaya atmayıb. Qatil əl-barmaq izlərinə əsasən mərhumun kimliyinin müəyyən edilə biləcəyini təxmin edib və bunu nəzərə alaraq qolları xüsusi olaraq gizlətməyə çalışıb. Bununla da istintaqçıları mərhumun şəxsiyyətini müəyyənləşdirmək istiqamətində əl-barmaq izlərinin identifikasiyasını gerçəkləşdirməkdən məhrum edib.

Mərhumun saçlarının, qaş və kirpiklərinin qırxılması isə belə nəticə çıxarmağa əsas verir ki, öldürülən, böyük ehtimalla, radikal dindarlardan olub. Qatil mərhumun baş-qaşını qırxmaqla ümumi görünüşünü tanınmaz hala qədər dəyişməyə cəhd edib.

Daha bir maraqlı detal odur ki, qatil 4 atəş açmaqla şəxsi həyatdan məhrum edib. Hövsan Aerasiya Stansiyası ətrafındakı ərazilər axtarılsa da, cinayət törədilən zaman istifadə edilən silahın gilizlərini aşkar etmək mümkün olmayıb. Mümkündür ki, cinayət digər ərazidə törədilib, qatil meyiti cinayəti törətdiyi ərazidə parçalayıb, tanınmaz hala gətirib. Və ya cinayət elə Hövsan Aerasiya Stansiyası yaxınlığında baş verib. Sadəcə, qatil hadisə yerindən gilizləri də götürməyi unutmayıb. Bu da son nəticədə istintaqçılara qətlin hansı silahla törədilməsini dəqiqləşdirməyə imkan verməyib.

Qatilin bunca tədbirli olması maraqlı bir sualı da aktuallaşdırır, kimliyi barəsində fikir yaradır. Qatil kimdir? Hansı peşənin sahibi olub? İstintaq işinin incəliklərini haradan bilir?

Mümkündür ki, qatil hüquq-mühafizə orqanlarının iş prinsiplərinə, əməliyyat-istintaq işlərinin aparılma qaydasına bələd biridir. O, atdığı addımlarla - ilk əvvəl hadisə yerindən gilizləri yığmaqla, meyiti parçalamaqla, sonradan qolları gizlətməklə, saçlarını, kirpiklərini qırxmaqla cinayətin üstünün açılamasını gizlətməyə nail olmağa çalışıb. Belə görünür ki, 2 ildir ki, buna nail olub. Qatilin qətlin üstünün açılmasına qarşı bunca preventiv tədbirlər görməsi onun qətlin üstünün açılmaması üçün də addımlar atacağı ehtimalını gücləndirir. O, qətl barəsində hər hansı bir formada məlumatlı olan şəxsi və ya şəxsləri də aradan götürmək üçün hərəkətə keçmə ehtimalları ilk günlər olsa da, artıq belə bir ehtimallar qalmayıb. Bəlkə də artıq keçib və bu qətllə əlaqəsi olmayan cinayət işi kimi başa çatdırılıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 151 (7321) 19 iyul 2019




Cümə söhbətləri

# Öncədən göndərdiklərimizi təftiş edək

**Bismilləhir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə böyük nemətlər nəsib edib. Yalnız bəxş etdiyi həyat neməti kifayət edər ki, bəndə öz Rəbbinə daim şükür içərisində olsun. Allahdan istəyimiz budur ki, yaxşı bəndələri üçün hansı nemətləri nəzərdə tutubsa, o nemətlərdən istifadəni bizlərə də nəsib etsin!**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Nə göndərdiyinə bax**

Mövzumuz mübarək Qurani-Kərimin "Həşr" surəsinin on səkkizinci ayəsi ilə bağlıdır. Rəbbimiz mübarək ayədə buyurur: "Ey iman gətirənlər, Allahdan qorxun! Hər kəs (özünün) sabah(ı) üçün qabaqcadan nə göndərdiyinə (qəlb gözü ilə) nəzər salmalıdır. Allahdan qorxun ki, Allah etdiklərinizdən xəbərdardır!".

Gündəlik durumumuz, halımız, vəziyyətimiz üçün olduqca vacib bir buyuruşdur. Allah Təala hər bir iman əhlinə, hər bir möminə müraciət edir ki, sən elə-belə deyilsən, gərək özünlə məşğul olasan, özünü İlahi rəngə boyayasan, özünü təqvaya yaxınlaşdırasan, İlahi sərhədləri qoruyasan, həyatında halal-haram sərhədləri bəlli olsun.

Digər tərəfdən, bizə sabahkı Qiyamət günümüzə hazırlıqla bağlı çağırış edir. İstisnasız olaraq hər kəs mütləq baş verəcək Qiyamət gününə hazırlaşmalı və o gün üçün nə göndərdiyinə dərindən nəzər salmalıdır.

Allah Təala sonda bir daha bizi təqvalı olmağa çağırır. Bəyan edilir ki, Allah Təala bütün etdiklərimizdən xəbərdardır. Bu, ayıldıcı və düşündürücü bir mesajdır.

**Allah Təala bir ayədə bizləri iki dəfə təqvalılığa çağırır**

Ayəyə diqqət edəndə görürük ki, Allah Təala bir ayənin içərisində iki dəfə təqvaya çağırış edir. Bəzi Qurani-Kərim müfəssirləri bununla bağlı qeyd edirlər ki, bu, insana təkid üçündür. İnsan həyatında təqvaya can atmalıdır, təqvaya çox çalışmalıdır. Ona görə də ayədə Rəbbimiz həm əvvəldə, həm də sona yaxın təqvaya riayət etməyə çağırış edir. Bir növ yenidən xatırlatmaq, mövzunun əhəmiyyətini başa salmaq üçün təqvaya iki dəfə çağırış edilir. Kifayət qədər müfəssirlər də var ki, burada böyük hikmətlərin olduğunu bəyan edirlər.

Deyirlər ki, ilk dəfə təqvaya dəvət edərkən Allah Təala əməlin özünə dəvət edir. Yəni möminlərə əməl sahibi olmağa, davranışlarına, hərəkətlərinə fikir verməyə çağırış edilir. Yəni ayənin əvvəlində iman əhlinə xitabən ümumən əmələ çağırış edilir. İkinci dəfə təqvaya çağırış isə sabahki günə - Qiyamət gününə göndərdiklərinə diqqətlə nəzər sal mənasındadır. Yəni indi ki, gördünüz o gün üçün göndərdiyin əməllər hansı vəziyyətdədir, indi o əməllərin keyfiyyətinə diqqət edin.

Sanki əvvəl möminlərə çağırış edilir ki, namaz qılın, oruc tutun, doğru danışın, yaltaqlıq etməyin, rüşvət almayın! Elə ki, diqqət etdik ki, qıldığımız namaz, tutduğumuz oruc, qazandığımız ruzi hansı keyfiyyətdədir, ikinci dəfədə çağırış bunadır ki, onun keyfiyyətinə xüsusi diqqət edək.

Deməli, birinci təqvaya çağırış əməlin özünə, ikinci təqvaya çağırış - əməlin keyfiyyətinə işarədir. Möminlər öncə əməl etməyə çağırılır. Sonra Qiyamət günü üçün göndərilən bütün hər şeyə diqqətlə nəzər salmaq tövsiyə edilir. Elə ki, gördü Qiyamət günü ortalığa çıxarılacaq bir keyfiyyətdə əməli yoxdur, insana çağırış edilir ki, onların keyfiyyətini düzəltsin.

**Müsbətlik və mənfilik çalarları**

Bəzi müfəssirlər isə bu aləqədə buyururlar ki, birinci təqvaya çağırış buna işarədir ki, insan xeyir işlər görməyə can atmağa, xeyir işlərdə təqvaya riayət etməyə dəvət edilir. İkinci təqvaya çağırış isə, mənfiliklərdən çəkinməklə təqvaya riayət etməklə bağlıdır.

İki dəfə təqvaya çağırışla bağlı bir təfsiri mövqe də budur ki, birincidə indiyə qədər etdiklərimizlə bağlı peşman olmaq, tövbə etmək, özümüzün düzəldilməsi ilə məşğul olmaq tövsiyə edilir, ikincidə isə bundan sonranı qurmaq, bərpa etmək çağırışı edilir.

Ayədən başa düşülən mövzulardan biri budur ki, ümumən Qiyamət günündə bizim əlimizdən tutacaq yeganə məsələ, istifadə edə biləcəyimiz yeganə sərmayə - buradan zamanında göndərə bildiyimiz, təqva əsasında edilmiş saleh əməllər olacaq.

**Təqvanın əsası - imandır**

Ayə ilə bağlı ilk təfsiri nöqtə budur ki, Allah Təala bütün imanlı insanları İlahi təqvaya riayət etməyə dəvət edir. İnsan elə-belə düzələn deyil, sadəcə, adi halla irəli gedən deyil. Hər birimiz özümüzlə məşğul olmalı, təkamülümüz üçün çalışmalı, öz halımızı təftiş etməliyik. Bunlar öz-özünə düzələn deyillər. Gərək hər birimiz öz halımızla məşğul olaq. Allah Təala bir növ bütün iman əhlini özü ilə məşğul olmaqla vəzifələndirir.

Digər təfsiri nöqtə budur ki, təqvanın əsası - imandır. İnsanın təqvaya yiyələnməsi üçün, təqvalı olması üçün imanlı olması zəruridir. Ona görə də Rəbbimiz ayədə bütün insanlara deyil, yaradılmışlara deyil, məhz iman əhlinə müraciət edir. İmanlı olmadan təqvalı olmaq, İlahi sərhədləri gözləmək, halal-haramlara riayət etmək, İlahi harmoniyaya qovuşmaq, təkamül etmək, İlahi rənglərə boyanmaq mümkün deyil.

Təqvalılıq imanın əsasında baş verə bilər. Amma təqvalı olmaq üçün sadəcə imanlı olmaq yetərli deyil. İmanlı olmağın nəticə verməsi üçün gərək bizlər həm də təqvalı olaq.

Yalnız nəzəri imanlı olmaq yetərli deyil. Həyatın bütün müstəvilərində - ailə həyatımızda, ictimai həyatımızda, iqtisadi həyatımızda - həyatımızın bütün müstəvilərində təqvaya can atmalıyıq.

Üçüncü təfsiri nöqtə budur ki, insan özündən sonra gələnlərə çox da arxayın olmamalıdır. Bizdən sonra gələn övladlarımızın, nəvələrimizin, yaxınlarımızın ümidinə qalmamalıyıq. Hər kəs öz Qiyamətinin fikrində olmalıdır. Hər bir kəs sabahkı Qiyamət gününə hazırlaşmalı, dərindən nəzər salmalıdır. Digərlərinə arxayın olmaq olmaz. Bəlkə unutdular və ya heç sizin fərqinizdə olmadılar?

Ən əsası isə, bizim özümüzün üçün etdiklərimiz ilə, digərlərinin bizim üçün edə biləcəklərinin arasında nə qədər fərq var?! Hər kəs öz Qiyamətinin fikrində olmalıdır.

**Saleh əməllərimiz bizi arxayınlaşdırmamalıdır**

Dördüncü təfsiri çalar budur ki, saleh əməl kimi topladıqlarımıza diqqət etməliyik. Mən namaz qılıram, mən oruc tuturam, mən yaxşı işlər görürəmsə, bunlar məni arxayınlaşdırmamalıdır. Qiyamət günü üçün hazırladığımız əməllərə, etdiyimiz davranışlara nəzər salmalıyıq. Saleh kimi tanıdığımız əməllərin, Allah bəndəsi kimi etdiyimizi düşündüyümüz davranışların təftişini etməliyik ki, vəziyyətini görə bilək. Əslində bu ayə yaxşı bildiyimiz əməllərin də təftişinə bir çağırışdır.

Beşinci təfsiri nöqtə budur ki, Rəbbimiz bizə bu ayədə öyrədir ki, özümüzün hesab-kitabı olmalıdır. Əgər biz bu gün hesab-kitab etməsək, sabah etməyimizin heç bir faydası yoxdur. Hər bir imanlı insanın bu günü ilə bağlı hesab-kitabı olmalıdır - mən nə edirəm, necə yaşayıram, vəziyyətim necədir, Allahın verdiyi potensiala necə davranıram?! İnsanın həyatının bütün müstəviləri ilə bağlı bir hesab-kitabı olmalıdır. Əgər bu gün hesab-kitab etməsək, sabah artıq gec olacaq. Sabah artıq nəticələrin təqdim olunması günüdür və bunun əsasında nəticələr bəlli ləşəcək. Yəni hər birimiz Qiyamət günündə göndərdiklərimizlə bağlı vəziyyətə nəzər salmalıyıq.

**Qiyamət günü sabah qədər yaxındır**

Altıncı təfsiri nöqtə budur ki, iman əhli bunun fərqində olmalıdır ki, Qiyamət günü yaxındır. Bizim bütün problemlərimiz bundan qaynaqlanır ki, biz Qiyamət gününü uzaq bilirik. Amma Rəbbimiz bizə xəbərdarlıq edir ki, Qiyamət günü yaxındır. Qiyamət gününün "sabah" kəlməsi ilə təqdim edilməsi Qiyamətin çox yaxın olduğunu bildirir. Rəbbimiz bəyan edir ki, Qiyaməti çox uzaqda sanmayın, Qiyamət sanıldığı kimi uzaqda deyil. Qiyamət, hesab-kitab çox yaxındır.

Yeddinci təfsiri nöqtə budur ki, gələcəyə baxma və Qiyaməti düşünmə - imanın təzahürlərindəndir. Yəni, bizim gələcəyimizlə, aqibətimizlə, yekunumuzla bağlı mütləq və mütləq təhlilimiz olmalıdır. Bu, əslində imanlılığın mühüm təzahürlərindəndir. İmanlı şəxs o şəxsdir ki, növbəti gün üçün - Qiyamət günü üçün etdiklərini analiz edir, keyfiyyətinə baxır. Həqiqi mömin o kəsdir ki, aqibətini düşünür.

**İnsanın inkişafı yalnız təqva platformasında baş tuta bilər**

Səkkizinci təfsiri nöqtə - təqva özümüzün hesab-kitabımızın bünövrəsidir. Biz təkamül etmək, özümüzü təftiş etmək istəyiriksə, bu, təqva platforması üzərində baş verməlidir.

Təqva olmasa İlahi koordinat olmaz, ölçü olmaz, meyarlar olmaz. Təqva bizim üçün həmin o İlahi koordinat sistemini müəyyən edir. Biz hesab-kitab edə bilirik ki, nəyi düz edirik, nəyi səhv edirik. Eyni zamanda, özümüzü müsahibə etmək, təftiş etmək - təqvanı gücləndirən ən ciddi amillərdəndir.

Doqquzuncu nöqtə budur ki, heç kəs özünü heç bir mərhələdə təhlükəsizlikdə hiss etməli deyil. Yəni, belə olmalı deyil ki, insan namaz qılırsa, oruc tutursa, gözəl əməllər edirsə - özünü qurtulmuş hesab edə bilər. Ayə bəyan edir ki, hər kəs Qiyamət günü üçün etdiklərinə yaxşı-yaxşı nəzər salmalıdır. Hər kəs Qiyamət gününə hazırlaşmalıdır. Heç kəs özünü sığortalanmış saymalı deyil. Əgər hazırlaşsaq, o zaman mühüm nəticələrə çata bilərik.

Onuncu təfsiri nöqtə budur ki, Xəbir olan, Xəbərdar Allaha iman - təqvanın baş tutma amillərindəndir. Əgər bizim həqiqətən də imanımız olsa ki, Allah Təala bizim etdiklərimizdən xəbərdardır - mütləqdir ki, biz təqvalı olarıq. Bəzən bütün faciələr ona görə baş verir ki, insan bunu unudur, bundan qəflət edir. Ona görə də Rəbbimiz ayənin sonunda bizə bundan xəbər verir. Əgər bizim diri imanımız olsa ki, Allah Təala etdiklərimizi görür - günah etməyə həya edərik.

Allahdan istəyimiz budur ki, bizə həqiqi həya ruhiyyəsini nəsib etsin.

**Təqvaya çağırış nümunələr əsasında olmalıdır**

Böyük İslam alimlərindən biri elə bu günlərdə təqva və təqvaya dəvətin əhəmiyyəti barədə vurğular edib. Özü-özlüyündə bir insanın düşüncəsi ola bilər ki, zaman-zaman təqvalı olmağa çağırışın nə əhəmiyyəti var? Bunun əslində çox böyük önəmi var. Təqvaya tövsiyə - insanın mənəvi oksigenidir ki, hər an buna ehtiyacı var. Mühümdür ki, o, öz doğru yerinə gedib çatsın və ən ali nəticələr hasil olsun.

Toplumda mütləqdir ki, təqvaya çağırış edilsin. Xüsusən İslam maarifçilərinin bir nömrəli missiyası budur ki, insanları, xüsusən iman əhlini təqvaya dəvət etsin. Sözsüz ki, özləri bunun daşıyıcısı olmalı, eyni zamanda toplumun diri, canlı qalması üçün buna çağırış etməlidir. Təqvaya çağırış zamanı nümunələri də mütləq göstərilməlidir. Günümüzdə təqvaya çağırışın ən önəmli nümunəsi - internet istifadəsi, sosial şəbəkələrdən istifadə zamanı təqvaya riayət olunmasına çağırışdır.

Yəni, yalana, böhtana, şayiəyə yol verilməməsinə çağırış edilməlidir. Təsəvvür edək ki, bir toplumda internetdən, sosial şəbəkələrdən istifadə zamanı təqvaya riayət olunsun, yalan, böhtan, şayiə, təhqir, həyat tərzinə çevrilməsin, İlahi sərhədlər qorunsun, məhrəm-namәhrəm mövzularına diqqət olunsun, təqvalılıq gözlənilsin - görün nə qədər gözəl olar! Bu gün təqvanın təzahür tapmalı olduğu mühüm yerlərdən biri məhz sosial şəbəkələrdir.

Bu gün təqvanın təzahür tapmalı olduğu ən mühüm yerlərdən biri - ailədə təqvadır. Hər iki müstəvidə - həyat yoldaşları arasında və valideyn-övlad münasibətlərində təqvalılıq gözlənilməlidir. Əgər həyat yoldaşları arasında münasibətlər təqva əsasında qurularsa, ailə nurani olar. Gərək hər iki tərəf İlahi dəyərləri əsas tutaraq davransın ki, ailədə təqvalı ab-hava hökmranlıq etsin. Bu gün təəssüflər olsun ki, sıradan çıxan mövzular məhz bunlardır. Ailə - dəyərlər, təqva üzərində mövcud ola bilər, bütün digər məsələlər ailə institutunu sıradan çıxarmağa yönəlmiş məsələlərdir.

Təqvanın önəmli təzahürlərindən biri də iş mühitündə təqvadır. Təsəvvür edək ki, bir iş mühitində yalan, böhtan, intriqalar hökm sürsün, insanlar bir-birilərinin "torbasını tikmək"də özlərini təzahür etdirməyə çalışsınlar - orada hansı nuraniyyətdən, hansı bərəkətdən söhbət gedə bilər?! Bir də var ki, iş mühitündə dürüstlük, doğruluq, ədalətlilik, vicdanlılıq, insaflılıq ruhiyyəsi dominantlıq təşkil etsin. Belə olan yerdə mütləq ki, Allahın da Öz inayəti və bərəkəti olar.

Allahım, aqibətlərimizi xeyirli et!

Allahım, həyatımızın bütün müstəvilərində təqvalı davranışı bizlərə nəsib et!

Allahım, Qiyamətimiz üçün keyfiyyətli əməllər göndərməyi, onları zaman-zaman təftiş etməyi bizlərə nəsib et! Amin!

YENİ MÜSAVAT

Son səhifə

N 151 (7321) 19 iyul 2019

# 71 il evli qalıb, eyni gündə öldülər

Amerikanın Corciya ştatından olan ər-arvad 71 il evli olublar və bir gündə ölüblər. Bu barədə Daily Mail nəşri xəbər verib. Herbert Deleqeyl Merlin Françes Deleqeyllə 1947-ci ildə qadının çalışdığı Uensboro şəhərində tanış olublar. "Mən onu tez-tez müşahidə edirdim. Onun necə ora-bura qaçmasına tamaşa etmək çox gözəl idi. Gözlərimi ondan ayıra bilmirdim. Amma mən yenə də cəsarətləndim və onu görüşə çağırdım". Kişi bu barədə 2018-ci ildə WRDW-yə müsahibəsində bildirib. Tanışlıqdan 1 il sonra gənclər evləniblər.



Delegeyl cütlüyünün 6 uşağı, 16 nəvəsi və 25 nəticəsi, üç kötücəsi var. Onlar ötən həftə, 12 iyulda, eyni gündə, Uensboro xəstəxanasında dünyalarını dəyişiblər. 94 yaşlı Herbert gecə 02.20-də, arvadı 88 yaşlı Merili Frensis isə ondan 12 saat sonra dünyasını dəyişib. Dəfn mərasimi 15 iyulda baş tutub.

Yamvar ayında xəbər verildi ki, Avstraliyada 70 il birgə yaşayan bir cütlük eyni gündə dünyasını dəyişib. Sonradan hətta həkim də ər-arvadın niyə eyni gündə öldüyünü müəyyənləşdirə bilməyib. Onların sənədlərində ölüm tarixi eyni gün oldu.



## 27 illik məhkumluqdan sonra günahsızlığı üzə çıxdı

Amerikada 14 yaşında ikən dostu ilə birlikdə maşınını oğurlamaq istədikləri polisi qəsdən adamöldürmə cinayətinə görə 27 il həbsdə yatan Con Bun azadlığa çıxıb. 27 il sonra onun günahsız olduğu müəyyənləşib. O, azadlığa çıxdığını eşidən kimi hakimi qucaqlayıb.

Nyu-Yorkda 1991-ci ildə, hələ 14 yaşında ikən dostu Rosen Hargreyvlə birlikdə maşınını oğurlamaq istədikləri bir polisi qəsdən öldürmə cinayətindən həbs edilən Con Bun məhkəmə zalından buraxılıb. Bun ilk gündən bu cinayəti törətmədiyini və ortada böyük bir yanlış anlaşılma olduğunu iddia etsə də, onu bu cinayətə görə məhkum ediblər. 2009-cu ildəki şərti azadlığa buraxılma tələbi də rədd edilən Bunun taleyi isə cinayət araşdırmasını həyata keçirən detektiv Luis Skarcellanın hadisə yerinə aldadıcı sübut qoyduğu ortaya çıxan zaman dəyişdi. Yenidən baxılan cinayət işində günahsızlığına qərar verilərək, azadlığa buraxılan Bun aşağıdakıları deyib: "27 ildir ki, həyatım üçün mübarizə aparırdım və bu gün məsum olduğum sübut edildi. Yaşadığım sevinci ifadə edə bilmirəm".

Bu sözləri deyəndən sonra o, sevincdən ağlayaraq onu azadlığa buraxan hakimin əllərinə sarılıb. Məhkəmə salonundakılar qərarı ayaq üstə alqışlayıb.

# Polis qorxusu onu öldürdü

Gənc ingilis qadın maşınını polis yoxlamadan keçirəndə kokaini ağzında saxlayıb və kokainin doza həddinin aşılmasına görə bir neçə saat sonra dünyasını dəyişib. Bu haqda "Metro" nəşri xəbər verib. Polis içində 19 yaşlı Corciya Kassidi ilə sevgilisi olan maşını saxlayıb. Qorxmuş qız narkotiki ağzında gizlədib, bunun sayəsində də polis onları saxlamayıb. Amma aradan 3 saat keçəndən sonra qızın halı pisləşib və 3 gün keçəndən sonra qız xəstəxanada dünyasını dəyişib. Ona kokainin doza həddinin aşılması diaqnozu qoyublar. Onun dostunu isə qeyri-qanuni narkotik saxlanması və yayılmasına görə həbs ediblər.

Dünyasını dəyişən qız katolik məktəbinin məzunu olub. Liverpuldakı gözəllik salonlarından birində kosmetoloq kimi çalışıb. Sevgilisi Koroner deyib ki, Kassidi təsadüf nəticəsində dünyasını dəyişib. Onun sözlərinə görə, bu hadisədə narkotacirlər günahkardır. Onlar bu sahədən böyük pullar qazanırlar.

Mayın əvvəlində Global Drug Survey layihəsinin sosioloqları apardıqları araşdırmanın nəticələrini açıqlayıb. Həmin araşdırmaya görə, kokaindən istifadə edən ingilislərin 36.8 faizi kokain sifarişi verəndən yarım saat sonra onu əldə etdiyini deyiblər. Rəyi soruşulanların 12,2 faizi bu müddətə onlara pizza da çatdıra bilirlər.



## 3 uşaq anası hər gecə saçlarını yolur - dərdin dərmanı tapılmır

25 ildir trikotilomani xəstəsi olan Kelli Lacey hər səhər əlləri qan içində oyanır. 36 yaşlı Kelli bu qorxunc xəstəliyi ucbatından az qala keçəl qalacaq. "Daily Mail"in xəbərinə görə, gecələr saçlarını yolan gənc qadın əllərində və balışında saç topası ilə oyanır. Hər gecə saçlarını yolan qadının başında böyük bir keçəllik izi var. 3 uşaq anası Kelli bu səbəbdən daim parik taxmaq məcburiyyətində qalıb. 25 ildir bu xəstəliklə yaşayan Laceylə bağlı mütəxəssislər deyir ki, bu, uşaqlığında yaşadığı cinsi istismar nəticəsində yaranan xəstəlikdir: " Məndən "niyə dayanmırsan?" deyə soruşurlar, amma bəzən saçlarımı yolarkən oyanıram. Bunu şüurlu olaraq etmirəm, çünki avtomatik olaraq baş verir".

# Bunları bilirsinizmi?

* İnsanlar duyğulandıqları üçün, heyvanlar isə fiziki ağrı hiss etdikləri üçün ağlayarlar.
* Sağ əli istifadə etmək ömrü uzadır.
* İnsan vücudunun ən güclü əzələsi dildədir.
* Sümük dəmirdən daha möhkəmdir.
* Bir addımda 200 əzələ işləyir.
* İnsan bir ömür boyu iki hovuzu dolduracaq qədər ağız suyu ifraz edir.
* Qəmgin olmaq gülməkdən daha çox əzələni hərəkətə gətirir.
* İnsan vücudundakı sümüklərin dörddə biri ayağındadır.
* Öskürəyin sürəti 26,8224 m/s dir.
* Asqırığın sürəti 44,704 m/s dir.
* Çox yemək karlığa səbəb olur.
* Körpələr bala öküzlərdən daha güclü olur.
* İnsan burnu 50 min qoxu hiss edə bilir.
* Qadınların kişilərə nisbətdə daha yaxşı iyi bilmə qabiliyyəti var.
* Beyin işləməsi üçün 10 Vat enerjiyə ehtiyac var.
* İQ yüksəkliyi pozitiv enerji verir.
* Xiyarın tərkibinin 96 faizi sudur.
* Bal xarab olmayan yeganə qidadır.
* Dünyada 4300-ə yaxın fərqli din var.
* Ay işığının bizə çatması 1,3 saniyə çəkir.
* Buqələmunların dili bədənlərindən iki qat uzundur.
* Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.
* Fillərin rəngi əslində boz deyil qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərilərində qurumasıdır.
* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.
* "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.
* Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıl rəngə çevrilir.
* Alma, soğan və kartofun dadı eynidir. Yalnızca qoxuları fərqlidir. Əslində hamısı şirindir.

# Çayda sərinləmək istədi, timsah yedi

Hindistanın Odişa ştatının Bxitarkanika milli parkında bir kişi çayda çimmək istəyinə düşüb. Bu zaman o, çayda timsahların olduğunu unudub. Bu unutqanlıq ona həyatına bahasına başa gəlib. Belə ki, kişi çaya girəndən 5 dəqiqə sonra timsah onu yaxalayıb. Kənd sakinləri hər nə qədər təlaşlanıb, səs salsalar da, bu, yırtıcı heyvanı dayandırmaq üçün kifayət etməyib. Bu, ilin əvvəlindən sözügedən çaya girən 6 nəfər timsah hücumuna məruz qalaraq dünyasını dəyişib.

"Son aylar bir çox timsah parklardan çıxır və çaylara, su hövzələrinə doğru yol alır ki, oraya yumurtalarını qoysun. Biz kənd sakinlərinə dəfələrlə xəbərdarlıq etmişik ki, çaylara və Bxitarkanika yaxınlığındakı su hövzələrinə girməsinlər". - Bunu da meşə təsərrüfatına nəzarət edən Bimal Prasanna Açarya bildirib.



Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.050